RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN

№ 146 (9891) 18 iyul 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR





## Müstəqil siyasət aparan mehriban qonşular

### Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Füzuliyə və Şuşaya səfər ediblər

Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna gəlib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar. İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

Sonra İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olub, Yeni Şuşa məscidində tikinti işlərinin gedişi, Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş heykəllərinə baxıb, Bülbülün ev-muzeyində olub, Yuxarı Gövhər ağa məscidini ziyarət edib, Mehmandarovların malikanə kompleksində və Cıdır düzündə olublar.

2-4

## Ortaq keçmişdən birgə gələcəyə

### Azərbaycan və Türkmənistan arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün perspektivlər genişdir



Ölkələrimiz arasında olan münasibətlər bir sıra çoxtərəfli format və platformalarda da inkişaf edir. Biz böyük türk dünyasının üzvləriyik və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim bir ailəmiz var, o da türk dövlətlərinin birliyidir. Türk dünyası çərçivələri daxilində Azərbaycan-Türkiyə-Türkmənistan üçbucağı şəklində, yəni daha sıx çərçivədə müzakirə edilən və həyata keçirilən geniş spektrli məsələlər mövcuddur. Belə bir format 2022-ci ildə yaradılıb və ardınca liderlərin baş tutan Zirvə görüşü bu böyük coğrafiyada – türk dünyasında və ikitərəfli münasibətlərdə növbəti birgə fəaliyyət tədbiri kimi müsbət nəticələrə səbəb olub.

Türkmənistanla Azərbaycan daha bir geniştərkibli iqtisadi layihədə birgə iştirak edirlər. Söhbət Türkiyə, Gürcüstan, Türkmənistan və Əfqanıstanı əhatə edən logistik marşrut – Lapis-Lazuli nəqliyyat dəhlizindən gedir. Bu marşrutla malların Avropaya daşınması sahəsində artıq ilkin addımlar atılıb. Güman ki, ölkələrimiz Orta dəhliz layihəsi çərçivəsində də bu uğuru davam etdirmək əzmindədirlər.

6

## Azərbaycan yeni dünya nizamında da söz sahibidir

Azərbaycan həm də regional və qlobal gündəliyi müəyyən edən dövlətdir. Söz sahibi kimi fərqlənməsinin göstəricisi olaraq respublikamız həm təmsil olunduğu coğrafiyada, həm də dünyada aktuallıq kəsb edən problemlərin həlli prosesində fəallıq nümayiş etdirir. Hələ 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına böyük töhfələr verən Azərbaycan sonrakı dövrdə Qoşulmama Hərəkatının sədri kimi də bu prosesdə bir daha fəal iştirak etdi.

Onu da qeyd edək ki, beynəlxalq münasibətlər sistemi uzun müddətdir ki, dərin böhran içərisindədir. Dünyanın siyasi mənzərəsi təzadlarla, qeyri-müəyyənliklərlə, qarşıdurmalarla, gərginliklərlə doludur. Qlobal səviyyədə qəbul olunmuş hüquq prinsiplərinin və normaların kobud şəkildə tapdalanması, dövlətlərin ərazi bütövlüyünün pozulması, ənənəvi siyasi institutların sarsılması bu düzənin ayrı-ayrı elementləridir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Bu mənada qlobal gündəmin əsas müzakirə mövzularından biri yeni dünya nizamının formalaşması ilə bağlıdır.

Həm də siyasi və hərbi qütbləşmənin dərinləşdiyi belə bir dövrdə milli maraqları təmin edən siyasi kurs həyata keçirmək hər bir dövlətdən güclü səy, diplomatik məharət və xüsusi imkanlar tələb edir.

6

## Viza Çin səddi olmasa da...

### Azərbaycan və ÇXR arasında viza rejiminin ləğvi əlaqələrimizin inkişafına əlavə təkan verəcək



Viza rejiminin ləğvi iki ölkə arasında əksər sahələrdə ciddi inkişafa səbəb olacaq. Xüsusilə iki sahə üzrə böyük dönüşün olması şübhəsizdir. Birincisi, Çinlə ölkəmizin biznes əlaqələri daha da güclənəcək. Artıq istər ölkəmizdəki, istərsə də Çindəki iş adamları viza almaq üçün vaxt itirməyəcəklər. İstədikləri vaxt tərəfdaşları ilə biznes əlaqələri qurmaq imkanı qazanacaqlar. İkincisi, bu iki ölkə arasında turizmin inkişafında önəmli rol oynayacaq. Məlumdur ki, hər kəs məzuniyyətə çıxıb istirahət etmək istəyir. Bu vaxt o, ilk növbədə vizasız ölkəyə üstünlük verir. Belə olan halda qarşıdakı illərdə ölkəmiz çinli turist axınının şahidi olacaq. Elə ölkəmizdən də Çinə gedib bu ölkənin tarixi abidələrini görmək, dünyaca məşhur Çin səddini seyr etmək istəyənlərin sayı az olmayacaq.

Çin hazırda ixracda bizim ən önəmli iqtisadi tərəfdaşımızdır. Son illər bu əlaqələrdə ciddi artımlar müşahidə edilir. Ötən il iki ölkə arasında xarici ticarət dövriyyəsinin dəyəri 20,7 faiz artaraq 3,7 milyard dollar olub.

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə ilk qoşulan Azərbaycan Orta dəhliz layihəsinə dəstək verməklə yalnız regional tranzit imkanlarını gücləndirməyi planlamır, eyni zamanda yeni müəssisələrin yaradılmasını hədəfləyir.

5

## "Rusiyanın "Sputnik"i başqa dövlətlərə qarşı dezinformasiya kampaniyasının alətidir"




Rusiya tərəfinin mediadan istifadə edərək digər ölkələrə qarşı belə təxribat xarakterli kampaniyalar təşkil etməsi dəfələrlə təkrarlanıb. Təəssüf ki, Rusiya belə çirkin kampaniyadan ölkəmizə qarşı da istifadə etməyə başlayıb. Məqsəd faktları kobud şəkildə təhrif etməklə beynəlxalq ictimai rəyi manipulyasiya cəhdidir. Faktlar Rusiya tərəfinin iddialarını qəti şəkildə təkzib edir. Məsələ ondadır ki, "Sputnik Azərbaycan"ın rəhbəri İqor Kartavixin və böyük redaktor Yevgeni Belousovun saxlanılmasının onların jurnalistika sahəsində peşə vəzifələrini yerinə yetirmələri ilə heç bir əlaqəsi yoxdur. Həmin şəxslər Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin (FTX) əməkdaşları olaraq, FTX-nin tapşırıqlarını yerinə yetirmək məqsədilə Azərbaycanda olublar. Bu baxımdan onların saxlanılması mövcud qanunvericiliyə tam uyğun və qanuni müstəvidə həyata keçirilən hüquqi tədbirdir.

Bu qurum Rusiyanın başqa dövlətlərə qarşı həyata keçirdiyi dezinformasiya kampaniyasının aləti rolunda çıxış edir. Rusiya Jurnalistlər İttifaqının belə bir müraciət ünvanlaması absurddur, çünki bu gün Rusiya jurnalistlərin azad fəaliyyət göstərməsinin ən çətin və təhlükəli olduğu ölkələrdən biridir.

9

## "Yeni Kaledoniya məsələsinin beynəlmiləlləşdirilməsində Azərbaycanın rolu danılmazdır"




Azərbaycan tam müstəqil siyasət həyata keçirir, heç bir mərkəzdən asılı deyil, öz geosiyasi iradəsi əsasında strateji kursunu uğurla davam etdirir. Buna görə də ölkəmizə rəğbət daim artır, yüksək hörmət və etimad göstərilir. Bütün bunların nəticəsidir ki, Azərbaycanın müstəmləkəçilikdən əziyyət çəkən xalqlara siyasi və mənəvi dəstək göstərməsi öz nəticəsini verməkdədir. Məlumdur ki, özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransa əslində tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirib. Bu müstəmləkəçilik siyasətindən müxtəlif xalqlar hələ də əziyyət çəkirlər. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Bakı Təşəbbüs Qrupu Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli tədbirlər keçirir.

9

◆ Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Füzuliyə və Şuşaya səfəri

# Müstəqil siyasət aparan mehriban qonşular

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma





**Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qurbanqulu Berdiməhəmmədovu Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Xalq Məsləhətinin Sədrinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.

## Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar







**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.**

AZƏRTAC xəbər verir ki, qonaq şəhərin Baş planı ilə tanış olub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qurbanqulu Berdiməhəmmədova 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində törədilən dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verib.

Bildirilib ki, vaxtilə sıx məskunlaşmış və çiçəklənən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. Torpaqlarımız işğaldan azad ediləndən sonra qısa müddətdə Füzuli şəhərinin Baş planı hazırlanıb, Prezident İlham Əliyev tərəfindən təsdiqlənib və 2021-ci ildə ictimaiyyətə təqdim edilib. Böyük nəqliyyat-logistika potensialına malik olan Füzuli, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Füzuli şəhərinin ümumi sahəsi təxminən 1942 hektardır. Baş plana əsasən, 2040-cı ilə qədər şəhərdə 50 min nəfərin yaşaması nəzərdə tutulur. Füzulidə İşğal və Zəfər muzeylərini əhatə edəcək Füzuli Memorial Kompleksi yaradılacaq, Kurmanqazı adına Yaradıcılıq Mərkəzi inşa olunub, şəhər xəstəxanası tikilir, şəhər parkı salınacaq, genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri həyata keçiriləcək. Baş plana əsasən, uşaq bağçaları və məktəblər kimi sosial infrastruktur obyektləri müvafiq olaraq 300 və 500 metrlik məsafədə yerləşəcək. Görüləcək işlər nəticəsində müasir standartlara və memarlıq özəlliklərinə uyğun inşa olunacaq Füzuli şəhəri azad edilmiş ərazilərdə iri şəhərlərdən birinə çevriləcək. Burada "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq. Füzuli şəhərinin 12 hektardan çox olan ərazini əhatə edəcək inzibati mərkəzi isə 3 hissəyə bölünəcək.





## Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər





İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

## Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Şuşada inşa edilmiş birinci yaşayış kompleksində olublar





**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.**

AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin Sədrinə kompleks barədə məlumat verdi.

İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bu kompleksin təməlini 2021-ci ilin avqustunda Azərbaycan Prezidenti qoyub. Yaşayış kompleksində ümumilikdə 450 mənzil var. Onlardan 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Burada keçmiş məcburi köçkünlər və Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər üçün xidməti mənzillər istifadəyə verilib. Bu yaşayış kompleksinə indiyədək 376 keçmiş məcburi köçkün ailəsi, ümumilikdə isə 1409 nəfər köçürülüb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin Sədrinə həyata keçirilən işlər haqqında məlumat verdi.

Bildirilib ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və memarlıq həlli rəmzi xarakter daşıyan məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi seçiləcək. Belə ki Prezident İlham Əliyevin tapşırığına əsasən məscidin forması 8 rəqəmini əks etdirəcək. Bu da öz növbəsində Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Məscidin iki minarəsi isə 11 rəqəmi formasında olacaq. Bu isə Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzidir. Minarələrinin hündürlüyü 72 metr olacaq məscid Şuşanın yuxarı hissəsində inşa edilir. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Hazırda işlərin 60 faizindən çoxu həyata keçirilib. Məscidin inşasının gələn il yekunlaşdırılması nəzərdə tutulub.

◆ Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Füzuliyə və Şuşaya səfəri

# Müstəqil siyasət aparan mehriban qonşular

## Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşa Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, ölkəəhəmiyyətli memarlıq abidələri siyahısında olan bu binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Yaradıcılıq Mərkəzi 2023-cü il mayın 10-da istifadəyə verilib.

Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağın sosial, iqtisadi, siyasi və mədəni inkişafında xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb.

Qeyd edək ki, 1969-cu ildən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Dahi şəxsiyyət mürəkkəb tarixi şəraitdə belə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolunun istismara verilməsi Qarabağın digər rayonlarımızla təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi baxımından Ulu Öndərin strateji addımı olmaqla yanaşı, həm də böyük tarixi xidməti idi.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri Şuşada Bülbülün ev-muzeyində olublar









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Bülbülün ev-muzeyində olublar.**



AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı Polad Bülbüloğlu qonağa görkəmli musiqiçinin bu evdə anadan olduğu və uşaqlıq illərini burada keçirdiyi barədə məlumat verib. Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün doğulduğu və yaşadığı ev onun ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşanın azad olunmasından sonra digər tarixi-mədəni abidələrimiz kimi Bülbülün ev-muzeyinin də bərpasına başlanılıb və 2021-ci ilin avqustunda bərpa işlərinin bitməsindən sonra muzeyin açılışı olub.

Ev-muzeyinin həyətində Bülbülün yeni büstü ucaldılıb. Şuşa şəhəri işğal altında olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü də erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

## Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Şuşada Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar





**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş heykəllərinə baxıblar.**




AZƏRTAC bildirir ki, işğal zamanı ermənilərin bu heykəlləri Ermənistana apararaq əritmək istədikləri barədə Qurbanqulu Berdiməhəmmədova məlumat verilib. Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra isə həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri Şuşada Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər

**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər.**



AZƏRTAC-ın məlumatına görə, Qurbanqulu Berdiməhəmmədovun diqqətinə çatdırıldı ki, vaxtilə işğal edilmiş bütün ərazilərimizdə olduğu kimi, Şuşada da tarixi abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqir edilib. Şəhərin 17 məscidindən 16-sı işğalçılar tərəfindən dağıdılmışdı. Şuşa işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırığı ilə dərhal məscidlərin bərpa edilməsi işinə başlanılıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər ağa məscidi olub. Heydər Əliyev Fondu tərəfindən burada həyata keçirilmiş bərpa işlərinə 2021-ci ilin sonlarından başlanıb. 2023-cü il mayın 10-da isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə məscidin əsaslı yenidənqurma və bərpadan sonra açılışı olub.



Yuxarı Gövhər ağa məscidi ölkəəhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

◆ Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Füzuliyə və Şuşaya səfəri

# Müstəqil siyasət aparan mehriban qonşular

## Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşada Mehmandarovların malikanə kompleksində olublar







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Mehmandarovların malikanə kompleksində olublar.**

AZƏRTAC xəbər verir ki, qonağa böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaqdan ibarət kompleksin Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunduğu barədə məlumat verildi.

Bildirildi ki, Azərbaycanın zəngin memarlıq ənənələrinin nadir nümunələrindən biri olan Mehmandarovların malikanə kompleksi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. 2021-ci ilin oktyabrından etibarən kompleksdə, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bu bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. 2023-cü il mayın 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər. Bərpa işlərindən sonra malikanə kompleksində muzey ekspozisiyası da qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu-XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

## Qurbanqulu Berdiməhəmmədova Cıdır düzündə "Dostluq" adlı Qarabağ atı hədiyyə edilib















**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Cıdır düzündə olublar.**

AZƏRTAC xəbər verir ki, burada Qarabağ atlarının təqdimatı keçirilib. Prezident İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adlı Qarabağ atını hədiyyə edib.

## Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşada birgə nahar ediblər



**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada birgə nahar ediblər. Bununla da Türkmənistan Xalq Məsləhətinin Sədrinin Azərbaycana səfəri başa çatıb.**

# Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin BƏƏ-nin Hesablama Qurumunun nümayəndə heyəti ilə görüşü olub



İyulun 17-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Hesablama Qurumunun sədri Humeyd Obeyd Abuşibsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlərin cari vəziyyətindən məmnunluq ifadə olunub. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə son səfərinin və hər iki ölkənin dövlət başçılarının iştirakı ilə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaratdığı xüsusilə vurğulanıb.

Son illər Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadiyyat, nəqliyyat, enerji, mədəniyyət sahələrində və digər sahələrdə münasibətlərin davamlı və dinamik inkişaf etdiyi vurğulanıb. BƏƏ şirkətlərinin Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrində istifadə sahəsində bir sıra uğurlu layihələr icra etdiyi bildirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətlə davam etdiyi diqqətə çatdırılıb. Görülmüş işlərin nəticəsi olaraq, artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqları bildirilib. Eyni zamanda Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə göstərdiyi maliyyə dəstəyinə görə BƏƏ-yə təşəkkür ifadə edilib.

Həmçinin Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Birləşmiş Ərəb Əmirliklərinin Hesablama Qurumunun fəaliyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, institusional islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması istiqamətində görülən tədbirlər və həmin sahələr üzrə ikitərəfli və beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# ADA Universiteti dövlət sifarişli yerlərə tələbə qəbuluna başlayır

İyulun 17-də ADA Universitetində dövlət sifarişi əsasında maliyyələşən yerlər haqqında məlumat sessiyası keçirilib. Tədbirdə universitetin rəhbərliyi, müəllim heyəti, abituriyentlər və onların valideynləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi 2025-2026-cı tədris ili üçün dövlət sifarişi əsasında maliyyələşən yeni təhsil imkanlarını ictimaiyyətə təqdim etmək olub.

Tələbələr Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi qəbul imtahanları nəticəsində dövlət sifarişi ilə ayrılmış yerlərə qəbul olunacaqlar. Həmin tələbələr təhsil müddəti boyunca təhsil haqqından tam azad olunacaq və akademik göstəricilərinə uyğun olaraq aylıq təqaüd alacaqlar. Bu qərar ölkədə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına və ali təhsilin maliyyə baxımından daha əlçatan olmasına yönəlmiş strateji addım kimi qiymətləndirilir.

Tədbirdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, bu təşəbbüs ali təhsilin keyfiyyətinə, gənclərin potensialının reallaşdırılmasına və ölkənin insan kapitalının inkişafına mühüm töhfə verəcək: "Yeni tədris ilindən etibarən ADA Universitetinə 180 dövlət sifarişli yer ayrılıb. Universitetin yaranmasından bəri əsas missiyamız Azərbaycanda xaricdə verilən təhsil səviyyəsindən də yüksək bir ali məktəb qurmaq olub".



Tədbirdə, həmçinin ADA Universitetinin iqtisadiyyat ixtisasının məzunu Aydan



Məmmədzadə və riyaziyyat ixtisasının tələbəsi Ömər Əsgərzadə çıxış edərək universitetdə qazandıqları təhsil təcrübələrini və uğur hekayələrini bölüşüblər.

Dövlət sifarişli yerlər ilkin mərhələdə müəyyən ixtisasları əhatə etsə də, gələcək illərdə bu imkanların daha çox akademik proqramlara şamil olunması planlaşdırılır. Bu isə daha geniş tələbə kütləsinin dövlət dəstəyindən yararlanmasına imkan yaradacaq.

2025-2026-cı tədris ili üzrə ADA Universitetində dövlət sifarişi əsasında tələbə qəbulu nəzərdə tutulan ixtisaslar bunlardır:

**I ixtisas qrupu:**

* Kompüter elmləri - 30 yer
* Kompüter mühəndisliyi - 30 yer
* Riyaziyyat - 30 yer
* İnformasiya texnologiyaları - 30 yer

**II ixtisas qrupu:**

* Maliyyə - 30 yer
* İqtisadiyyat - 30 yer

# Hesablama Palatası ASOSAI İdarə Heyətinin 62-ci toplantısına evsahibliyi edib



İyulun 17-də Azərbaycan Respublikası Hesablama Palatasının evsahibliyi ilə Bakıda Ali Audit Orqanları Asiya Təşkilatının (ASOSAI) İdarə Heyətinin 62-ci toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, toplantıya ASOSAI İdarə Heyəti və Audit Komitəsinin üzvləri, eləcə də Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) sədrliyi və katibliyinin nümayəndələri, INTOSAI İnkişaf Təşəbbüsünün təmsilçiləri daxil olmaqla, 100-dən çox iştirakçı qatılıb. Tədbir ASOSAI sədrliyini təmsil edən Hindistanın Müfəttiş və Baş Auditorunun müavini Krishnan Sangaranın çıxışı ilə başlayıb.

Sonra ev sahibi - Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək, toplantının əhəmiyyəti barədə danışıb, qurumun beynəlxalq əməkdaşlığa verdiyi önəm və ASOSAI çərçivəsində verilən töhfələr barədə fikirlərini bölüşüb.

Vüqar Gülməmmədov bildirib ki, tədbirin Bakıda keçirilməsi Azərbaycan üçün qürurverici və məsuliyyətlidir. O, Hesablama Palatasının beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinə, bilik və informasiya mübadiləsinin gücləndirilməsinə, həmçinin regional əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb. Hesablama Palatasının ötən ilin sentyabrında Hindistanın Yeni Dehli şəhərində keçirilmiş ASOSAI Assambleyasında ilk dəfə olaraq təşkilatın İdarə Heyətinə üzv seçildiyini xatırladan V.Gülməmmədov ASOSAI İdarə Heyətinə üzv seçilməyin həm etimad, həm də gələcəkdə daha fəal iştirak üçün məsuliyyət olduğunu qeyd edib.

Sədr çıxışında əlavə edib ki, ali audit orqanları arasında bilik və təcrübə mübadiləsinin genişlənməsi əməkdaşlığın daha sistemli qurulmasına şərait yaradacaq. O, həmçinin Azərbaycanda həyata keçirilən dövlət maliyyə idarəetməsi islahatları barədə fikirlərini bölüşüb.

Daha sonra Azərbaycan haqqında təqdimat videosu nümayiş olunub. ASOSAI İdarə Heyətinin 62-ci toplantısının rəsmi hissəsində İdarə Heyətinin 60 və 61-ci toplantılarının protokolları təsdiqlənib, təşkilatın 2024-cü il üzrə fəaliyyəti və maliyyə hesabatları, eləcə də 2026-2028-ci illəri əhatə edən büdcə planı nəzərdən keçirilib.

Toplantıda ASOSAI-nın Strateji Planı, təşkilatın digər regional qurumlarla əməkdaşlığı, işçi qrupların illik fəaliyyəti və ASOSAI Jurnalının yeni buraxılışları ilə bağlı təqdimatlar olub.

Gündəlikdə yer alan əsas məsələlərdən biri isə INTOSAI-nın İdarə Heyətinə 2025-2031-ci illər üzrə iki yeni üzvün və INTOSAI-nın kənar auditorunun seçilməsi olub. Seçkilərin nəticələrinə görə, Birləşmiş Ərəb Əmirlikləri və Pakistan INTOSAI-nın İdarə Heyətinə 2025-2031-ci illər üzrə üzv, Koreya Respublikası isə INTOSAI-nın 2026-2028-ci illər üzrə kənar auditoru seçilib.

Toplantıda Ali Audit Orqanları Asiya Təşkilatının (ASOSAI) İdarə Heyətinin 63-cü toplantısının 2026-cı ildə Qazaxıstanın paytaxtı Astana şəhərində keçiriləcəyi ilə bağlı qərar qəbul edilib. Həmçinin təşkilatın İdarə Heyətinin üzvləri tərəfindən irəli sürülmüş təşəbbüs əsasında ASOSAI-nin Qaydaları üzrə xüsusi qrupu yaradılıb. ASOSAI-nin İdarə Heyətinin üzvlərindən Azərbaycan, Pakistan, Malayziya, Tailand və Hindistan yeni yaradılan xüsusi qrupa könüllü qoşulub.

# Viza Çin səddi olmasa da...

## Azərbaycan və ÇXR arasında viza rejiminin ləğvi əlaqələrimizin inkişafına əlavə təkan verəcək

Çin hazırda dünyanın yüksələn iqtisadi gücüdür. Ona görə də indi dünyada Çin Xalq Respublikası (ÇXR) ilə iqtisadi sahədə əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artır.

Azərbaycanın xarici siyasətində ana xətt Qərb və Şərq bloku ilə eyni səviyyədə siyasi və iqtisadi əlaqələr saxlamaqdır. Prezident İlham Əliyevin Çinə son səfərindən sonra ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin istiqamətləri getdikcə genişlənir. İki ölkə arasında ötən il bu münasibətləri və əlaqələri üst səviyyəyə qaldırmaq üçün strateji əməkdaşlıq barədə saziş də imzalanıb.

Məlum olduğu kimi, ölkələr arasında olan viza rejimi insanların, xüsusən iş adamlarının sərbəst gediş-gəlişində müəyyən bürokratik əngəllər yaradır. Çin və Azərbaycan bu maneəni aradan qaldırmaq, dövlətlər arasında əlaqələri asanlaşdırmaq barədə razılığa gəldilər və Azərbaycan Prezidenti İlham Əliyevin Çinə cari ilin aprel ayındakı növbəti dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" iyulun 16-da qüvvəyə mindi.

Həmin sazişə əsasən, Azərbaycanın etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları və Çinin etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları digər ölkə ərazisinə daxil olmaq, oranı tərk etmək və yaxın tranzit keçmək üçün hər səfər ərzində 30 gündən çox olmamaqla və hər 180 günlük dövr ərzində ümumilikdə 90 gün müddətini aşmamaqla viza tələbindən azad edilirlər. Söz düşmüşkən qeyd edək ki, Çinin vizasız gediş-gəliş barədə saziş bağladığı ölkələrin sayı o qədər də çox deyil.

Viza rejiminin ləğvi iki ölkə arasında əksər sahələrdə ciddi inkişafa səbəb olacaq. Xüsusilə iki sahə üzrə böyük dönüşün olması şübhəsizdir. Birincisi, Çinlə ölkəmizin biznes əlaqələri daha da güclənəcək. Artıq istər ölkəmizdəki, istərsə də Çindəki iş adamları viza almaq üçün vaxt itirməyəcəklər. İstədikləri vaxt tərəfdaşları ilə biznes əlaqələri qurmaq imkanı qazanacaqlar. İkincisi, bu iki ölkə arasında turizmin inkişafında önəmli rol oynayacaq. Məlumdur ki, hər kəs məzuniyyətə çıxıb istirahət etmək istəyir. Bu vaxt o, ilk növbədə vizasız ölkəyə üstünlük ve-




rir. Belə olan halda qarşıdakı illərdə ölkəmiz çinli turist axınının şahidi olacaq. Elə ölkəmizdən də Çinə gedib bu ölkənin tarixi abidələrini görmək, dünyaca məşhur Çin səddini seyr etmək istəyənlərin sayı az olmayacaq.

Çin hazırda ixracda bizim ən önəmli iqtisadi tərəfdaşımızdır. Son illər bu əlaqələrdə ciddi artımlar müşahidə edilir. Ötən il iki ölkə arasında xarici ticarət dövriyyəsinin dəyəri 20,7 faiz artaraq 3,7 milyard dollar olub.

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə ilk qoşulan Azərbaycan Orta dəhliz layihəsinə dəstək verməklə yalnız regional tranzit imkanlarını gücləndirməyi planlamır, eyni zamanda yeni müəssisələrin yaradılmasını hədəfləyir. Azərbaycan həm Qərb, həm də Şərq müəssisələri üçün unikal coğrafiyada yerləşir. Bir sıra hallarda Çində ixrac məqsədli məhsulların istehsalına ehtiyac olmur. Həmin müəssisələr "Ələt Azad İqtisadi Zonası"nın ərazisində əsas kapitala sərmayə qoyaraq Çin mənşəli məhsulları ölkəmizdə istehsal edərək Qərb bazarlarına çıxara bilərlər. Habelə Qərb müəssisələrinin istehsalını azad iqtisadi zonalarda quraraq Çin bazarlarına çıxış əldə etmək imkanları da genişdir.

"Trans-Xəzər Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizi Çini Mərkəzi Asiya, Qafqaz, Türkiyə üzərindən Avropa İttifaqı ilə birləşdirən və Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), eləcə də Süveyş kanalı vasitəsilə dəniz yoluna alternativ olan multimodal nəqliyyat marşrutudur. Azərbaycan Orta dəhlizin önəmini və cəlbediciliyini artırmaq üçün ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini həyata keçirib. Azərbaycan Çinlə Orta dəhlizin səmərəliliyini artırmaq üçün Zəngəzur dəhlizinin açılmasından ötrü birgə siyasət həyata keçirir.

İki ölkə arasında qarşılıqlı maraqlara xidmət edən iqtisadi əlaqələrlə yanaşı, normal siyasi münasibətlər də mövcuddur. Ermənistan tərəfindən torpaqlarımız işğal olunanda bütün beynəlxalq və regional tədbirlərdə Çin tərəfi açıq və birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmişdir. Azərbaycan da öz növbəsində "iki Çin" siyasətinə qarşı çıxaraq vahid Çin siyasətini dəstəkləmişdir. Bu gün də Azərbaycan rəsmi olaraq Tayvanı Çinin ərazisi kimi tanıyır və o üzdən etibarlı siyasi tərəfdaşlığımız bu ölkədə yüksək qiymətləndirilir. Görünən odur ki, viza rejiminin ləğvi iki ölkə arasında həm iqtisadi, həm də siyasi əlaqələrin daha da yüksək səviyyəyə çatmasına əlavə təkan verəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Qərargah zabiti kursu"nun buraxılış mərasimi keçirilib

İyulun 17-də Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutunun "Qərargah zabiti kursu"nun buraxılışına həsr olunmuş mərasim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, respublikamızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

MMU rektorunun elm və təhsil üzrə müavini general-mayor Arif Həsənov



məzunları Müdafiə Nazirliyi və MMU rəhbərliyi adından təbrik edib, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatlardan danışan general-mayor A.Həsənov ordu quruculuğunda müasir təhsil sisteminin daha da inkişaf etdirilməsinin əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb, "Qərargah zabiti kursu"nun zabitlərin peşəkarlığının daha da artırılmasında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Məzunlar adından çıxış edən kurs birincisi yaradılan şəraitə, eləcə də kursun yüksək səviyyədə təşkili və keçirilməsinə görə Müdafiə Nazirliyi və MMU rəhbərliyinə, professor-müəllim heyətinə minnətdarlığını bildirib, qazandıqları nəzəri bilikləri xidmətlərində uğurla tətbiq edəcəklərini vurğulayıb.

Sonda kursu bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan yeni dünya nizamında da söz sahibidir

**Azərbaycanı dünyaya tanıdan yalnız neft-qaz amili deyil. Azərbaycanı dünyaya təqdim edən həm də müstəqil və çoxvektorlu xarici siyasət yürüdən dövlət olması, qlobal miqyasda sülhə və təhlükəsizliyə layiqli töhfələr verməsidir. Ən əsası, Ermənistan tərəfindən işğal olunmuş ərazilərini müharibə yolu ilə azad etməsi və dinamik inkişaf yolu ilə addımlaması dünyada Azərbaycanla bağlı olan yüksək təəssüratları daha da möhkəmləndirir.**

### İlham ƏLİYEV: "Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur"

Elə bu amillər həm də Azərbaycana Cənubi Qafqazın aparıcı dövləti statusu qazandırıb, onu beynəlxalq səviyyədə söz sahibi olan dövlətlərin cərgəsinə yüksəldib. Təsadüfi deyil ki, aktual məsələlərlə bağlı beynəlxalq münasibətlərdə ölkəmizlə hesablaşır, rəsmi Bakının mövqeyini bölüşürlər. Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışında dediyi kimi: "Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur". Dövlət başçısının bu sözləri də təsdiq edir ki, Azərbaycan regionun aparıcı və söz sahibi olan dövlətidir və Bakı ilə razılaşmayanlara burada yer yoxdur.

Bu isə Azərbaycanın qətiyyətli siyasəti, regional və qlobal məsələlərlə bağlı dəqiq mövqeyi olan dövlət olduğunu nümayiş etdirir. Bu barədə çoxsaylı misallar çəkmək olar. Hələ illər öncə Azərbaycanın Xəzərdən hasil etdiyi nefti alternativ marşrutla dünya bazarlarına çıxarması müstəqil enerji siyasətinin təcəssümü idi. Bu siyasətin başqa bir göstəricisi 2020-ci ilin sonundan başlayaraq Azərbaycanın təbii qazının birbaşa Avropa bazarlarına çatdırılmasıdır. Eləcə də Azərbaycanın nəqliyyat dəhlizləri ilə bağlı rəqabətdə qazandığı uğurlar da ölkəmizin qətiyyətli siyasətinin təzahürüdür. Reallıq ondan ibarətdir ki, regiondakı bütün aparıcı və qitələri birləşdirən enerji və nəqliyyat layihələrinin təşəbbüskarı Azərbaycandır. Ölkəmizin iştirakı olmadan hər hansı regional və beynəlxalq statuslu layihənin reallaşdırılması, demək olar ki, mümkün deyil.

Bu layihələrdən yararlananlar həm də Gürcüstan, Türkiyə, Avropa və Orta Asiya dövlətləridir. Respublikamızdan keçən nəqliyyat dəhlizləri Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə daha yaxın edir, dövlətlərarası iqtisadi əməkdaşlığı dərinləşdirir. Azərbaycanın enerji siyasəti isə dost dövlətlərin, habelə Avropa İttifaqına üzv ölkələrin milli maraqlarını da qoruyur.

Regionda oyundankənar vəziyyətə salınan yalnız Ermənistandır. İşğal siyasətinə görə Azərbaycan bu dövləti bütün layihələrdən kənarda saxlayıb, onu regional və transkontinental inteqrasiyalardan təcrid edib. Azərbaycanın iradəsi xaricində Ermənistanın bu vəziyyətdən çıxması mümkün deyil.

### Azərbaycan yeni dünya nizamının formalaşmasına real təsiri olan dövlətlərdəndir

Digər tərəfdən, Azərbaycan həm də regional və qlobal gündəliyi müəyyən edən dövlətdir. Söz sahibi kimi fərqlənməsinin göstəricisi olaraq respublikamız həm təmsil olunduğu coğrafiyada, həm də dünyada aktuallıq kəsb edən problemlərin həlli prosesində fəallıq nümayiş etdirir. Hələ 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına böyük töhfələr verən Azərbaycan sonrakı dövrdə Qoşulmama Hərəkatının sədri kimi də bu prosesdə bir daha fəal iştirak etdi.

Onu da qeyd edək ki, beynəlxalq münasibətlər sistemi uzun müddətdir ki, dərin böhran içərisindədir. Dünyanın siyasi mənzərəsi təzadlarla, qeyri-müəyyənliklərlə, qarşıdurmalarla, gərginliklərlə doludur. Qlobal səviyyədə qəbul olunmuş hüquq prinsiplərinin və normaların kobud şəkildə tapdalanması, dövlətlərin ərazi bütövlüyünün pozulması, ənənəvi siyasi institutların sarsılması bu düzənin ayrı-ayrı elementləridir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Bu mənada qlobal gündəmin əsas müzakirə mövzularından biri yeni dünya nizamının formalaşması ilə bağlıdır.

Həm də siyasi və hərbi qütbləşmənin dərinləşdiyi belə bir dövrdə milli maraqları təmin edən siyasi kurs həyata keçirmək hər bir dövlətdən güclü səy, diplomatik məharət və xüsusi imkanlar tələb edir. Olduqca mühümdür ki, belə bir şəraitdə milli mənafelərini təmin edən Azərbaycan regionun orta gücü olaraq, yeni dünya nizamının formalaşmasına real təsiri olan dövlətlərdəndir. Cənubi Qafqazda aparıcı dövlət olması, həyata keçirdiyi kommunikasiya layihələri respublikamıza bu müstəvidə böyük imkanlar qazandırır.

Onu da qeyd edək ki, son illərdə Azərbaycanın Qlobal Cənubda nüfuzu sürətlə yüksəlməkdədir. Bunun da əsas səbəbi Bakının qlobal qeyri-bərabərliyin azaldılmasına verdiyi töhfələrdir. Həm Qoşulmama Hərəkatına, həm də COP29-a sədrliyi dövründə respublikamız bu istiqamətdə nümunəyə çevrilən fəaliyyət ortaya qoyub. Məhz Azərbaycanın qətiyyətli siyasəti nəticəsində inkişaf etməkdə olan dövlətlərin səsi, onların üzləşdikləri problemlər mötəbər platformalardan dünyanın diqqətinə çatdırılıb. Respublikamızın strateji təşəbbüsləri ona Qlobal Cənub və Qərb arasında mühüm körpü rolunda çıxış etməyə imkan verir.

Dəyişikliklərə məruz qalan dünya nizamı, dünyanın siyasi qütbləri arasında yeni müstəviyə qədəm qoyan, eyni zamanda dərinləşən gərginliklər Avropa İttifaqını da Azərbaycanla bağlı siyasətində korrektələr etməyə, ölkəmizlə bağlı yanlış siyasətindən əl çəkməyə vadar edir. İndi özünün iqtisadi təhlükəsizliyi ətrafında daha çox düşünməyə məcbur olan Avropa İttifaqı bu məsələdə Azərbaycanla tərəfdaşlığın da mühüm rol oynadığının qənaətindədir. Son aylarda baş verən bir sıra hadisələr bunu deməyə əsas verir. Avropa İttifaqı da Azərbaycanın dünya nizamındakı rolunu, qlobal proseslərə təsir imkanlarını görür və qiymətləndirir.

Azərbaycan yeni dünya nizamına söz sahibi, güclü və aparıcı mövqelərə malik dövlət kimi daxil olur. Eyni zamanda təkcə regional deyil, geopolitik maraqları olan dövlətə çevrilməsi Azərbaycanın müasir tarixinin əsas reallıqlarından biridir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Ortaq keçmişdən birgə gələcəyə

### Azərbaycan və Türkmənistan arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün perspektivlər genişdir

**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri iki dost ölkə arasındakı münasibətlərdə yeni səhifənin açılması ilə əlamətdardır. Dövlət liderlərinin qarşılıqlı səfərləri indiyədək də olub.**
**Türkmənistanın milli liderinin budəfəki səfəri isə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra bir ilkdir. Qurbanqulu Berdiməhəmmədovun proqramında Qarabağa səfərin olması dünyaya bir mesajdır: bütöv türk dünyasının üzvü kimi Türkmənistan da Azərbaycanın tarixi qələbəsini alqışlayır.**



### Bizi nə birləşdirir

Türkmənistanla Azərbaycanı bir-birinə bağlayan tarixi, etnik, dini və mənəvi bağlardan savayı, dövlətlərimizin maraqlarının uzlaşdığı bir neçə əlavə platforma var. Birincisi, şübhəsiz ki, ikitərəfli münasibətlərdir və bunlar geniş spektrli mövzu və çağırışları özündə ehtiva edir. İstər Xəzər üzrə əməkdaşlıq, istər birgə neft-qaz təşəbbüsləri, istərsə də dünyada baş verən dəyişikliklərə koordinasiya edilmiş yanaşmanın sərgilənməsi baxımından. Unutmayaq ki, Türkmənistan da Azərbaycan kimi Qoşulmama Hərəkatının üzvüdür. Rəsmi Aşqabad bu təşkilat çərçivəsində Azərbaycanın irəli sürdüyü təşəbbüs və təklifləri ən fəal şəkildə dəstəkləyən dövlətlərdən biridir.

İkincisi, bizim aramızda olduqca geniş diapazonlu iqtisadi əlaqələr var ki, onlar da böyük perspektiv və potensiala malikdir. Bu müstəvidə Türkmənistanın hasil etdiyi karbohidrogen daşıyıcılarının Qərb bazarlarına Azərbaycan vasitəsilə daşınması xüsusilə maraq kəsb edən məsələdir.

Daha bir məqam beynəlxalq yük daşımalarında müştərək mövqelərdən çıxış etməyin vacibliyidir. Hazırkı reallıqda bu, olduqca ciddi məsələdir, çünki hər iki ölkədən keçən Orta dəhlizin önəmi gündən-günə daha çox hiss edilir. Ölkələrimizdən cənubda yenicə müharibədən çıxmış və hələ də sabit sayılmayan coğrafiya - İsrail-İran qarşıdurması var. Şimalda isə Rusiya-Ukrayna müharibəsinin nə zaman və hansı nəticələrlə bitəcəyini proqnozlaşdırmaq mümkün deyil. Bu baxımdan bölgəmiz, o cümlədən Türkmənistan, Xəzər dənizi və Azərbaycanın daxil olduğu bu dəhliz hazırda dünya iqtisadiyyatı və ticarətinin böyük ümidlər bəslədiyi perspektivli logistika arteriyasına çevrilməkdədir. Bu fürsətdən maksimum yararlanmaq üçün həm Azərbaycanın, həm də Türkmənistanın səylərini birləşdirməsi günün tələbidir.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanın Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla təkbətək görüşündə demişdir: "Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq".

### İkitərəfli təmaslarda yeni mərhələ

İkitərəfli əlaqələrdən danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, Azərbaycanla Türkmənistan strateji tərəfdaşdırlar. Bu barədə müvafiq bəyannamə 2017-ci il avqustun 8-də Bakıda imzalanıb. Bu baxımdan aramızda olan istənilən münasibət həmin sənəddən irəli gəlir və strateji əhəmiyyət daşıyır.

Türkmənistanın milli liderinin Azərbaycana sonuncu səfəri 2020-ci il martın 11-də reallaşmışdı. Həmin səfər ərzində tərəflər nəqliyyat, ticarət və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparmışlar. Səfərin mərkəzi mövzusu təbii ki, enerji nəqliyyatı olmuşdur. Söhbət Türkmənistanın hasil etdiyi neft və qazın Azərbaycana məxsus kəmərlər vasitəsilə Avropa bazarlarına çıxarılmasından gedirdi. Bu mövzu indi də aktualdır.

Bir il sonra – 2021-ci il yanvarın 21-də videokonfrans formatında Azərbaycan və Türkmənistan hökumətləri arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı. Bu memorandumu 2020-ci ildə baş tutmuş səfərin məntiqi nəticəsi saymaq olar. Prezident İlham Əliyev bununla bağlı demişdir: "…Bu yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək".

Ölkələrimiz arasında olan münasibətlər bir sıra çoxtərəfli format və platformalarda da inkişaf edir. Biz böyük türk dünyasının üzvləriyik və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim bir ailəmiz var, o da türk dövlətlərinin birliyidir. Türk dünyası çərçivələri daxilində Azərbaycan-Türkiyə-Türkmənistan üçbucağı şəklində, yəni daha sıx çərçivədə müzakirə edilən və həyata keçirilən geniş spektrli məsələlər mövcuddur. Belə bir format 2022-ci ildə yaradılıb və ardınca liderlərin baş tutan Zirvə görüşü bu böyük coğrafiyada – türk dünyasında və ikitərəfli münasibətlərdə növbəti birgə fəaliyyət tədbiri kimi müsbət nəticələrə səbəb olub.

Türkmənistanla Azərbaycan daha bir geniştərkibli iqtisadi layihədə birgə iştirak edirlər. Söhbət Türkiyə, Gürcüstan, Türkmənistan və Əfqanıstanı əhatə edən logistik marşrut – Lapis-Lazuli nəqliyyat dəhlizindən gedir. Bu marşrutla malların Avropaya daşınması sahəsində artıq ilkin addımlar atılıb. Güman ki, ölkələrimiz Orta dəhliz layihəsi çərçivəsində də bu uğuru davam etdirmək əzmindədirlər.

### Azərbaycanın suverenliyinə növbəti dəstək

Qurbanqulu Berdiməhəmmədov türk dünyasında növbəti liderdir ki, Azərbaycanın Vətən müharibəsi və antiterror əməliyyatı ilə torpaq bütövlüyünü bərpa etməsini alqışlayır və bu, Zəfəri özününkü kimi qəbul etdiyini göstərir. Türkmənistanın milli liderinin səfər proqramında Qarabağa getməsi, habelə Bakıda Zəfər parkını ziyarət etməsi dünyaya açıq mesajdır: bu qələbə yalnız Azərbaycanın deyil, bütün türk dünyasının və ayrı-ayrılıqda türk dövlətlərinindir. Bu səfər və ziyarət eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq tarixinə, şəhidlərə və qazilərə münasibətdə sərgilənən ehtiramdır ki, xalqımız və dövlətimiz belə bir münasibəti yüksək qiymətləndirməyə bilməz.

İndiyədək işğaldan azad edilmiş bölgəmiz türk dövlətlərinin liderləri tərəfindən bir deyil, bir neçə dəfə ziyarət edilib. Qazaxıstan, Özbəkistan və Qırğıstan liderləri həm azad edilmiş ərazilərin infrastrukturunun bərpası istiqamətində təşəbbüs müəllifləri olublar, həm də dövlətlərinin hədiyyəsi olan təhsil ocaqlarının açılışında iştirak etməklə Azərbaycan xalqının tarixi qələbəsinə mənəvi dəstəklərini ifadə ediblər. Qurbanqulu Berdiməhəmmədovun da Qarabağa səfərinə məhz bu müstəvidən baxmaq lazımdır. Heç şübhəsiz ki, rəsmi Aşqabad bu iradəsini və bu istiqamətdə səylərini qarşıdakı dövr ərzində də nümayiş etdirəcək.

Türkmənistanın milli lideri təkbətək görüşdə bununla bağlı bildirmişdir: "Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir".

### Qeyri-sabit dünyada sabit münasibətlər

Dəyişkən siyasi prioritetlər, seysmik geosiyasi vəziyyət, hərbi təhlükələr və iqtisadi böhranlar reallığında həm Azərbaycan, həm də Türkmənistan üçün dünyadakı təzahürlərə eyni və yaxud oxşar baxışlar sərgiləmək olduqca vacibdir. İzlədiyimiz yeni dünya nizamı prosesi əksər hallarda kiçik və dəstəksiz dövlətlər üçün ağrılı fəsadlara səbəb olur. Bu baxımdan təmsil olunduğumuz türk dünyası hər iki dövlətin milli təhlükəsizliyi üçün əlahiddə dərəcədə vacibdir. Bu ehtiyac Bakı və Aşqabadda həm geniş müstəvidə türk dövlətlərinin birliyi çərçivəsində, həm də ikitərəfli əlaqələrin inkişaf etdirilməsi yolu ilə hava-su kimi lazımdır.

Qeyd etdiyimiz kimi, ölkələrimiz şimalda və cənubda qeyri-sabit, hərbi əməliyyatlarla müşayiət olunan situasiyalarla qonşuluqda yerləşir. Bu gerçəklik bizə milli və hərbi təhlükələrlə yanaşı, humanitar çətinliklər hesabına başa gələ bilər. Odur ki, savadlı və praqmatik siyasət təmsil olunduğumuz regional dəhlizin bir sabitlik zonası olaraq qalmasında ciddi həyati önəm kəsb edir.

Qarşıdakı illərdə bizi iri logistik proseslərin məsuliyyəti və iqtisadi dividendləri gözləyir. Ölkələrimiz nəinki Şərqdən Qərbə uzanan qlobal transmilli nəqliyyat marşrutunun üzərində yerləşir, habelə bu dəhlizin mühüm bəndləridirlər. Bu o deməkdir ki, Türkmənistanla Azərbaycan sərhəd, gömrük, maliyyə və ticarət sahələrində də təmasları intensivləşdirməli, qanunvericiliyi və prosesin praktiki tərəflərini maksimum şəkildə adaptasiya etdirməlidirlər. Xəzər dənizinin bir sahilində Türkmənistan, digərində isə Azərbaycan yerləşir. Bizim aramızda dəniz vasitəsilə gəmiçilik, yükdaşıma tarixən mövcud olub. Ancaq proqnozlaşdırılan həcm misli görünməmiş səviyyədə böyükdür və qarşılıqlı koordinasiya tələb edir.

Qloballaşan və daha da gərginləşən beynəlxalq münasibətlər gerçəkliyində təkcə dövlətlərimizin deyil, xalqlarımızın da əlaqələrinin intensivləşdirilməsində, daha çox humanitar məzmunlu proseslərə qatılmasında ciddi fayda ola bilər. Bu, bizə imkan yaradır ki, müasir zəmanənin çağırışlarına daha səmərəli və operativ reaksiya verək. Türkmənistanın milli lideri Q.Berdiməhəmmədov təkbətək görüşdə xüsusi vurğuladı ki, bu səfər Türkmənistan ilə Azərbaycanın bundan sonra da yaxınlaşması, əməkdaşlığın uzunmüddətli strategiyasının reallaşdırılması kontekstində həyata keçirilən yanaşmaların işlənib hazırlanmasında mühüm amilə çevriləcək.

Bütün bu məsələlər məhz dövlət liderlərinin görüşləri zamanı müzakirə olunur və həllini tapır. Söhbət iki türk dövlətindən gedirsə, ön plana tarixi bağlar, ümumi köklər və mənəvi əlaqələr çıxır. Gələcəyimizi möhkəm edən də məhz bu amillərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Göz xəstəliklərinə dair fundamental əsər

## Akademik Zərifə Əliyevanın "Oftalmologiyanın aktual problemləri" kitabı ingilis dilində nəşr edilib

**Müasir elmin çağırışlarına uyğun olaraq beynəlxalq elm ictimaiyyətinin və dünyada nüfuzlu tibb universitetlərinin tələbə-müəllim heyətinə təqdim edilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinin təşəbbüsü, AMEA prezidenti akademik İsa Həbibbəylinin ön söz müəllifliyi ilə Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı elmi əsaslı kitabı ilk dəfə ingilis dilinə tərcümə olunaraq nəşr olunmuşdur.**




Kitab göz xəstəlikləri, onların diaqnostikası və müalicəsinə dair fundamental əsərdir. Bu gün də aktuallığını qoruyan və mütəxəssislərin, xüsusən də gənc oftalmoloqların geniş istifadə etdiyi bu kitab ilk dəfə 1983-cü ildə görkəmli oftalmoloq alimlər - akademik Zərifə Əziz qızı Əliyeva, professor Nina Borisovna Şulpina və akademik Larisa Konstantinovna Moşetovanın həmmüəllifləri ilə rus dilində nəşr edilmişdir. Monoqrafiyanın hazırlanmasında məqsəd oftalmologiya elminin əsas nailiyyətlərini toplamaq, ümumiləşdirərək təhlil və şərh etmək, bununla da həkimlərin biliklərini artırmaq ehtiyacını ödəmək idi.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Zərifə xanım Əliyevanın tədqiqatlarında müasir müalicə üsulları ilə bağlı ümumiləşdirilmiş nəzəri prinsiplər və mülahizələr əvvəllər mövcud olan elmi modellərə deyil, praktiki təcrübədən və real həyatda aparılan müşahidələrdən əldə edilən nəticələrə əsaslanırdı.

Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı kitab beş bölmədən ibarətdir. Birinci bölmə həkim deontologiyası, tibbi etika və əxlaq məsələlərinə həsr olunmuşdur. İkinci bölmədə gözün biomikroskopiyasının müasir aspektləri əks olunmuşdur. Bu bölmədə gözün optik mühit və qişalarının biomikroskopiya üsulları, kataraktanın biomikroskopiyasının klinik əhəmiyyəti və s. haqqında geniş məlumat qeyd olunmuşdur. Üçüncü - oftalmovirusologiyanın əsasları bölməsində kəskin virus konyunktivitləri və gözün herpetik xəstəlikləri əks olunmuşdur. Dördüncü bölmə gözün zədələnmələrinə həsr edilmişdir. Bu bölmədə göz almasına nüfuz edən zədələr, gözün kontuziyası, gözün mexaniki zədələnmələri zamanı təxirəsalınmaz yardım və müalicə tədbirləri, müxtəlif istehsal sahələrində gözün toksiki-kimyəvi zədələnmələri barədə ətraflı məlumat verilmişdir. Beşinci bölmə də oftalmologiyanın aktual problemlərindən biri olan gözün mikrocərrahiyyəsinin propedevtikasına aid olub, bu bölmədə mikrocərrahi blokun təchizatı, mikrocərrahi müdaxilənin əsas prinsipləri, qlaukomanın, gözün kontuziyasının və zədələnmələrinin mikrocərrahi üsullarla müalicəsi geniş təsvir edilmişdir.

Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı vəsait oftalmoloqlar və bu sahə üzrə ixtisaslaşan həkim rezidentlər üçün əhəmiyyətli olub, ingilis dilinə tərcüməsi geniş oxucu kütləsinin qazanılmasına şərait yaradacaqdır.

Akademik Zərifə Əliyeva gənc nəslin təlim-tərbiyəsində, peşəkar həkim-oftalmoloqların, yüksəkixtisaslı elmi kadrların yetişməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir, gənc ixtisaslı həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir.

Zərifə xanım Əliyevanın qələmə aldığı orijinal monoqrafiyalarında, monumental kitablarında, çoxsaylı elmi və elmi-kütləvi əsərlərində, ən əsası da hələ sağlığında el məhəbbəti qazandığı, özünün heykəlini ucaltdığı insanların qəlbində daim yaşayır və yaşayacaqdır. Akademik Zərifə Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün tükənməz, təkrar bir örnəkdir.

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət Mükafatı Laureatı***




# Səssiz siyasət

## Leyla xanım Əliyeva sübut edir ki, siyasət ucadan danışmaq yox, xalqın və ölkənin xeyrinə sakitcə iş görməkdir

**Müasir siyasət yalnız yüksək tribunalarda, parlament kürsülərində, küçə və meydanlarda, kütləvi informasiya vasitələrində aparılmır. O, bəzən insanların qəlbinə toxunan, ruhunu silkələyən səssiz təsirlərdən də doğur və güc olaraq onun fonunda formalaşır. Buna yumşaq güc deyilir, yəni bir ölkənin mədəniyyət, humanitar fəaliyyət və sosial layihələr vasitəsilə nüfuz qazanması.**

Yumşaq güc bu gün Azərbaycanda konkret bir simada təcəssüm tapıb. Bu, Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri Leyla Əliyevadır.

O, bəzən səssiz qalır, bəzən isə mədəniyyətin, təbiətin, insanlığın dilində danışır. Leyla Əliyeva siyasi arenadan uzaqda yumşaq və incə yollarla minlərlə insanın həyatına toxunur, çoxlarının taleyini dəyişir, Azərbaycanı dünyaya tanıdır. Nə parlament üzvüdür, nə də hökumət nümayəndəsi. Ancaq imzasını daşıyan layihələr, sözün əsl mənasında, sərhədləri aşır. Onun fəaliyyəti qəzəbli ritorikalardan uzaq, daha çox təbəssüm, mərhəmət, şəfqət, xeyirxahlıqla əhatə olunub.

2004-cü ildə Heydər Əliyev Fondu təsis olunanda çoxlarına sadəcə bir xeyriyyə təşkilatı kimi görünürdü. Amma zaman keçdikcə baxış dəyişdi və bu gün fond Azərbaycanın sosial və humanitar diplomatiyasının əsas dayaq nöqtəsi hesab olunur. Leyla xanım Əliyeva fondun vitse-prezidenti kimi təkcə məktəblərə, uşaq evləri və xəstəxanalara baş çəkmir, eyni zamanda dövlətimizin sosial mesajlarını əyani olaraq cəmiyyətə və dünyaya çatdırır. Onun rəhbərliyi ilə fondun həyata keçirdiyi layihələr - Qarabağ müharibəsində zərər görmüşlərə, şəhid ailələrinə, qazilərə göstərilən yardımlardır, beynəlxalq sərgilərdə Azərbaycanın təqdimatıdır, xalqla dövlət arasında körpü yaratmaqdır, Azərbaycana, xalqımıza dünyada rəğbət qazandırmaqdır.

Leyla xanımın təşəbbüsləri ilə həyata keçirilən hər bir layihə – istər hansısa kənd məktəbinin yenidən qurulması olsun, istərsə də bir uşaq evinə gətirilən istilik – bu, dövlətin tolerantlıq, mərhəmət və inkişafyönlü mesajlarıdır. O mesajlar ki, Leyla Əliyeva onları sözlə deyil, konkret əməlləri ilə çatdırır.

Leyla Əliyeva 2011-ci ildə təsis etdiyi IDEA-nın təşəbbüsü ilə tamam başqa bir sahəyə – ekologiyaya da keçid etdi. İlk baxışda bu, ağac əkmək, tullantıları təkrar emala göndərmək, su hövzələrini qorumaq kimi bir ekoloji təşəbbüs təsiri bağışlayır. Amma həmin layihələr vasitəsilə həm də siyasi mesajlar verilir: Azərbaycan müasir, təmiz, məsuliyyətli bir dövlətdir. Əslində, ağacəkmə aksiyasında iştirak edən minlərlə gənc təkcə yaşıllığa yox, həm də ictimai proseslərə inteqrasiya olur. Onlar tədricən cəmiyyətin fəal üzvlərinə çevrilirlər. Bu, Leyla xanımın yumşaq gücdən istifadə edərək ekologiyanın dili ilə yürütdüyü siyasətdir.

Bu mənada iki gün öncə Şıx qəsəbəsindəki Dənizkənarı parkda Azərbaycanın təbiət mühafizəsinin 100 illiyinə həsr olunan “12 Azərbaycan möcüzəsi” adlı sərgi bir mətn deyil, duyğu dili ilə yazılmış poetik manifest idi. Sərgidə Azərbaycanın milli parkları, təbii ehtiyatları, müxtəlif bitki və heyvan növlərini əks etdirən çəkilişlər təqdim edildi. Açılışda çıxış edən Leyla Əliyeva vurğuladı ki, 1925-ci ildə Göygöl Dövlət Qoruğunun yaradılması ilə başlayan mühafizə tarixində bu sərgi, ekologiyaya diqqət çəkmək və ictimaiyyətin təbiətə görə məsuliyyətini artırmaq üçün əhəmiyyətli bir platformadır. Əslində, sərginin açılışı faktiki olaraq nəfəs alan səyahətdir. Hər foto, hər görüntü Azərbaycanın ritmini, nəfəsini və ruhi zənginliyini daşıyır. Leyla Əliyeva yalnız bir sərgini ziyarət etmir, ədəbi dilə bənzər ekoloji çağırış edir: “Təbiəti sevirsənsə, gəl onu qoru!”

Leyla Əliyeva xarici siyasət və diplomatiyada yumşaq güc strategiyası ilə də diqqət çəkir. Sırf siyasi formatdan kənara çıxaraq, sosial, mədəni və ekoloji təşəbbüslərlə ictimai və regional əlaqələrdə mühüm təsir forması yaradır. Məsələn, IDEA-nın təşəbbüsü ilə Azərbaycanı beynəlxalq səviyyədə müasir və məsuliyyətli bir dövlət imici ilə təqdim edir. Digər regional və beynəlxalq görüşlərdə, mədəni tədbirlərdə Leyla Əliyeva dövlətin yumşaq güc strategiyalarını həyata keçirir, sosial mesajları hiss olunan formatda dünyaya ötürür. Fərdi səviyyədə regional dialoqa göstərdiyi diqqət də məhz bu strategiyanın bir parçasıdır. O, regional liderlərin övladları ilə qurduğu münasibətlərdə də həmin yanaşmanı qoruyur. Təbii ki, bunlar siyasi deyil, mədəniyyətlərarası dialoqu humanist dil ilə ifadə edən mədəni addımlardır.

Belə bir humanist və diplomat yanaşmanın canlı göstəricisi kimi Türkmənistan Xalq Məclisinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva ilə bu günlər baş tutmuş görüş iki millətin gəncləri arasında ürəkləri birləşdirən mədəni bir gediş kimi dəyərləndirilə bilər. Dövlətlərarası münasibətlərdəki rəsmi protokoldan kənarda qurulmuş bu görüş – Oquldjaxan Atabayeva ilə salınan yeni körpü Leyla xanımın növbəti yumşaq güc siyasəti idi. Heydər Əliyev Mərkəzində, Milli Xalça Muzeyində və Bakı Kitab Mərkəzində Oquldjaxan xanımla keçirilən zaman da məhz yumşaq güc diplomatiyasının əyani təzahürü idi. İki xanım arasında paylaşılan düşüncələr kitabların dilində, xalçaların naxışlarında və ilmələrində ifadə olundu.

Sadalananlar Leyla Əliyevanın təcrübəli siyasətçilərin belə bəzən bacarmadığı fəaliyyət növüdür. Çünki o, heç vaxt klassik siyasi ritorika ilə çıxış etmir. Sözləri adətən qısa, amma konkret olur. Leyla xanım fəaliyyəti ilə göstərir ki, siyasət təkcə ucadan danışmaq deyil, həm də xalqın və ölkənin mənafeyi üçün sakitcə iş görməkdir.

***Züleyxa ƏLİYEVA,***
***“Azərbaycan”***

# "Bizim həyət" layihəsi çərçivəsində yenilənmiş növbəti həyət sakinlərin istifadəsinə verilib






**İyulun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli "AB" yaşayış sahəsində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 3500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**





AZƏRTAC xəbər verir ki, "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş bu həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Həyətdə bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları yerləşdirilib, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ yeni ağaclar və mövsümi güllər, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən, havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb. Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 159 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin "qaynar xətt"i "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.




# Konstitusiya və Suverenlik İli 2025

# Dövlət idarəçiliyində yeni mərhələ reallıqların yaratdığı zərurətdən doğurdu

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi Azərbaycan Respublikasının dövlətçilik tarixində əlamətdar hadisə olmaqla, hüquqi dövlət quruculuğunun yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu, yalnız hüquqi və ideoloji simvol deyil, həm də ölkənin dövlət idarəçiliyi sistemində yeni bir strateji mərhələnin başlanğıcını simvolizə edir.

Prezidentin bu barədə sərəncamı dövlətin müstəqil inkişaf yolunda keçdiyi tarixi mərhələlərin nəticəsi olmaqla yanaşı, eyni zamanda idarəetmədə modernləşmə və transformasiyanın gücləndirilməsi zərurətindən irəli gəlir. Bu addım habelə ölkəmizin müstəqil dövlətçilik ənənələrinin gücləndirilməsinə, hüquqi dövlət prinsiplərinin daha da möhkəmləndirilməsinə, milli suverenliyin təbliği və qorunmasına yönəlmiş strateji yanaşmanın bariz ifadəsidir. 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” kimi müəyyənləşdirilməsi həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət idarəetməsinin siyasi-hüquqi təməl prinsiplərinə dönüşü simvolizə edən, milli dövlətçilik fəlsəfəsinin yenidən konseptuallaşdırılmasına xidmət edən mühüm bir təşəbbüsüdür. Bu qərar həm simvolik, həm də institusional səviyyədə ciddi nəticələr vəd edən bir mərhələnin başlanğıcıdır. Konstitusiya və suverenlik anlayışları milli identiklik, hüquqi mədəniyyət, siyasi legitimlik və idarəetmə modelinin dayanıqlılığı kimi anlayışlarla qarşılıqlı əlaqə içində nəzərdən keçirildikdə, bu ilin tarixi və nəzəri əhəmiyyəti daha da aydın görünür.

Azərbaycan Konstitusiyası dövlətin hüquqi əsasını, idarəetmə sisteminin strukturunu və vətəndaşların hüquqlarını təmin edən başlıca sənəddir. Ümumiyyətlə, Konstitusiya hər bir hüquqi dövlətin struktur əsasını və normativ arxitekturasını təşkil edən ali hüquqi sənəddir. Konstitusiyanın modern hüquq sistemində əsas funksiyası normativ sabitliklə ictimai dinamikanın balanslaşdırılmasıdır. Belə ki, cəmiyyət inkişaf etdikcə hüquqi çərçivənin ona adekvat şəkildə çevik və mütərəqqi formada yenilənməsi vacibdir. Bu baxımdan Konstitusiyada edilən dəyişikliklər dövlətin hüquqi sisteminin adaptasiya qabiliyyətini nümayiş etdirir. Azərbaycanda 1995-ci ildə qəbul olunmuş Konstitusiya yalnız bir hüquq məcəlləsi deyil, eyni zamanda milli suverenliyin siyasi və hüquqi deklarasiyası kimi çıxış etmişdir.

Ulu Öndər Heydər Əliyevin imzasını daşıyan və mütərəqqi yanaşmalarını özündə ehtiva edən Konstitusiya müstəqil Azərbaycanın hüquqi, siyasi və sosial həyatını müəyyənləşdirən strateji sənəddir. O, eyni zamanda dövlətin ərazi bütövlüyünü və suverenliyini konstitusion səviyyədə qoruyur. Dövlət suverenliyi hər bir xalqın öz taleyini müstəqil müəyyənetmə hüququnun təminatıdır. Azərbaycanın suverenliyi təkcə siyasi müstəqillik deyil, həm də iqtisadi, hüquqi, mədəni və informasiya sahələrində də özünü göstərən kompleks anlayışdır. Suverenlik anlayışı yalnız beynəlxalq hüquqda dövlətin müstəqil subyekt statusunu ifadə etmir, eyni zamanda daxili idarəetmədə normativ özünütənzimləmə, hüquqi müstəqillik, milli iqtisadi modelin formalaşdırılması və informasiya sahəsində də suveren qərarvermə imkanlarını özündə cəmləyir. Klassik beynəlxalq münasibətlər nəzəriyyəsində suverenlik “Westphalia sistemi”ndən bu yana dövlətçiliyin əsas atributu kimi qəbul edilir. Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər yalnız ərazi bütövlüyünün deyil, həm də real suverenliyin bərpası aktı kimi qiymətləndirilə bilər. Bu hadisə konstitusion hüquqların faktiki təminatı və dövlətin suveren iradəsinin konkret geosiyasi nəticəyə çevrilməsi baxımından əlamətdardır.

Son illər regional və qlobal proseslər fonunda suverenliyin qorunması məsələsi daha da aktuallaşmışdır. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər ölkəmizin öz torpaqları üzərində tam suverenliyini bərpa etməsi ilə nəticələndi. Bu qələbə həm də konstitusion normaların real gücünü və dövlətin milli maraqlarını müdafiə etmək əzmini bir daha nümayiş etdirdi.

"Konstitusiya və Suverenlik İli" yalnız simvolik deyil, eyni zamanda praktik addımlarla müşayiət olunur. Dövlət idarəçiliyində aparılan islahatlar bu mərhələnin əsas mahiyyətini təşkil edir. Hazırda ölkədə rəqəmsal idarəetməyə keçid, elektron xidmətlərin genişləndirilməsi, şəffaflıq və hesabatlılıq mexanizmlərinin gücləndirilməsi prioritet istiqamətlərdəndir. Dövlət orqanlarının fəaliyyətində vətəndaş məmnunluğunun əsas göstərici kimi qəbul olunması idarəetmədə humanist və vətəndaşyönümlü yanaşmanın formalaşmasına səbəb olmuşdur. Bununla yanaşı, dövlət qulluqçularının peşəkarlığının artırılması, gənc kadrların idarəetməyə cəlb olunması, regional idarəetmə strukturlarının təkmilləşdirilməsi də yeni mərhələnin əsas hədəflərindəndir. Dövlət idarəçiliyində “yeni mərhələ” dedikdə, yalnız texnoloji yenilənmələr yox, həm də idarəetmənin fəlsəfəsində və institutlararası münasibətlərdə keyfiyyət dəyişikliyi nəzərdə tutulur. Bu mərhələdə aşağıdakı aspektlər ön plana çıxır:

Əsas prioritetlərdən biri azad edilmiş torpaqlarda pilot idarəçilik modellərinin tətbiqi, reinteqrasiya proseslərinin gerşəkləşdirilməsi, lokal dövlət xidmətlərinin formalaşdırılması və yerli özünüidarə orqanlarının fəaliyyətinin tənzimlənməsidir. Eyni zamanda ölkədə rəqəmsal dövlət konsepsiyası çərçivəsində xidmətlərin elektronlaşdırılması, şəffaflıq və operativliyin təmin olunması üçün ciddi addımlar atılır. “MyGov” platforması və digər e-xidmət kanalları idarəçilikdə çevikliyi artırmaqla yanaşı, vətəndaş məmnuniyyətinin yüksəlməsinə səbəb olur. Son beş ildə rəqəmsallaşdırılmış xidmətlərin səviyyəsi 35 faizdən 90 faizə qədər artmışdır.

Dövlət xidmətlərinin rəqəmsallaşmasının illər üzrə göstəriciləri (faiz):

| 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| 35 | 45 | 60 | 75 | 90 |

Dövlət qulluğu sahəsində də mühüm islahatlar həyata keçirilir. Yeni dövrün tələblərinə uyğun olaraq, dövlət qulluqçularının kompetensiyalarının inkişafı, peşəkar hazırlıq və təlim proqramları genişləndirilir, şəffaf seçim və qiymətləndirmə mexanizmləri tətbiq edilir. Dövlət qulluqçularının sosial təminatı və karyera inkişafı imkanları da genişləndirilir.

Konstitusional dəyərlərin sosial təzahürü də diqqət mərkəzindədir. İnsan hüquqları, gender bərabərliyi, hüquqi maarifləndirmə və ictimai iştirakçılıq kimi prinsiplər idarəçilikdə əsas dayaqlara çevrilmişdir. Bu həm cəmiyyətin hüquqi şüur səviyyəsinin yüksəlməsinə, həm də dövlət-vətəndaş münasibətlərinin daha sağlam əsaslar üzərində qurulmasına gətirib çıxarır. Xüsusilə aşağıdakı sahələrdə konstitusional prinsip və yanaşmaların aktuallığı diqqət çəkir:

• İnsan hüquq və azadlıqlarının təminatı;
• Gender bərabərliyi və sosial ədalət;
• Mədəniyyət və təhsil sahələrində milli kimliyin qorunması.

Hazırda qədəm qoyduğumuz yeni mərhələ dövlət idarəçiliyində strateji hədəflərin çərçivəsini də müəyyən edir. Yeni dövr idarəetmədə daha dinamik, sürətli qərarverici, cəmiyyətə açıq və şəffaf yanaşmalar tələb edir. Bu kontekstdə bir neçə istiqamət ön plana çıxır:

• Strategiya əsaslı idarəetmə – 2022–2026-cı illər üzrə milli inkişaf strategiyasında idarəetmənin məqsəd və nəticə yönümlülüyü vurğulanır.

• İnsan kapitalının önə çəkilməsi – dövlət qulluqçularının motivasiya sistemi yenilənir, təlim və tədris proqramları müasirləşdirilir.

• Süni intellekt və böyük verilər əsasında qərarların qəbulu – vətəndaşyönümlü xidmətlərin daha səmərəli təşkili.

Çağırışlar və onların idarəçilikdə strateji hədəflərlə uyğunluğu:

| Çağırış | Strateji Hədəf |
|---|---|
| Reinteqrasiya və ərazi inkişafı | Lokal idarəetmə və sosial infrastruktur |
| Rəqəmsal transformasiya | Süni intellekt və böyük verilərlə idarəetmə |
| Sosial ədalət və iştirakçılıq | İctimai nəzarətin gücləndirilməsi |
| Hüquqi dövlət quruculuğu | Konstitusiyanın effektiv tətbiqi |

Bir sözlə, göründüyü kimi, “Konstitusiya və Suverenlik İli” yalnız retrospektiv bir baxış deyil, həm də gələcəyə ünvanlanan strateji çağırışdır. Bu çağırış idarəetmədə sabitliyi, davamlılığı və milli dəyərlərə əsaslanan inkişafı hədəfləyir. Əminliklə demək olar ki, bu mərhələ Azərbaycanın hüquqi dövlət quruculuğunun yeni keyfiyyət mərhələsidir. “Konstitusiya və Suverenlik İli” dövlətin hüquqi-siyasi inkişafı ilə idarəçilik islahatlarının sinxronlaşması baxımından unikal bir mərhələdir. Bu prosesin effektivliyini təmin etmək üçün aşağıdakı təkliflər aktuallıq kəsb edir:

1. İdarəetmədə yeni modelin – çevik, texnoloji əsaslı, iştirakçılıqyönümlü – tam tətbiqi.

2. Konstitusiya ilə bağlı təhsil və maarifləndirmə kampaniyalarının genişləndirilməsi.

3. Yeni idarəetmə kadrlarının hazırlanması üzrə ixtisasartırma proqramlarının gücləndirilməsi.

4. Regionlarda və azad olunmuş ərazilərdə lokal idarəçilik mexanizmlərinin təşviqi və təkmilləşdirilməsi.

Yekun olaraq, “Konstitusiya və Suverenlik İli” Azərbaycan Respublikasında dövlət idarəçiliyinin milli maraqlara və müasir çağırışlara uyğun şəkildə yenidən formatlanması üçün real fürsət pəncərəsi yaratmışdır. Bu fürsəti effektiv və uzunmüddətli institusional nailiyyətə çevirmək bizim dövlətçilik məsuliyyətimizdir.

***Ziyafət HƏBİBOVA,***
***siyasi elmlər doktoru, professor***

# Suverenliyimizin və milli kimliyimizin rəmzi

## Bayraq Muzeyi vətənpərvərlik hisslərinin aşılandığı müqəddəs məkandır

Bayraq müstəqilliyin, azadlığın, milli kimliyin, xalqın birlik və bərabərliyinin, şəhid qanının rəmzidir. Kimliyimizi əks etdirən rənglərə bürünmüş vüqarla dalğalanan hilal ən dərin duyğuların ifadəsidir. O, tarixdən gələn bir çağırış, gələcəyə uzanan ümiddir. Bayrağımız dalğalandıqca içimizdə vüqar, sinəmizdə qürur, gözlərimizdə sevinc yaşı doğulur. O, dalğalanırsa, torpaq, xalq, söz müstəqildir, azaddır. Bayraq həm də xalqın özünü tanıması, özünü sevməsi deməkdir.























Müqəddəs bayrağımızın şərəfinə yaradılmış Azərbaycan Dövlət Bayrağı Muzeyi də tariximizə, milli-mənəvi dəyərlərimizə, dünənimizə və bu günümüzə olan ehtiramın təcəssümüdür. O, yalnız bir sərgi məkanı deyil, həm də gənclərimizə vətənpərvərlik duyğuları aşılayan, xalqımızın azadlıq və suverenlik uğrunda apardığı mübarizənin simvolu olan mühüm mədəniyyət ocağıdır.

Paytaxtın Dövlət Bayraq meydanı ərazisində yerləşən, müasir memarlıq üslubunda inşa edilmiş muzey dünyanın ən hündür bayraq dirəyinin pyedestalının altında yerləşir. Binanın girişi, çıxışı eynidir. 9 noyabr 2010-cu ildə Dövlət Bayrağı Günündə fəaliyyətə başlayan, açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirak etdiyi unikal layihə səkkizguşəli ulduz formasında tikilib. Dairəvi formada inşa edilən muzeyin girişi və çıxışı eynidir.

Muzeylə bağlı məlumat verən Dövlət Bayrağı Muzeyinin direktoru, tarix üzrə fəlsəfə doktoru Könül İmamverdiyevanın sözlərinə görə, tariximizin əsrləri aşan şanlı yolunu əks etdirən bu müqəddəs məkan fəaliyyətə başladığı ilk gündən Azərbaycanın üçrəngli bayrağını dünya miqyasında tanıtmaqla yanaşı, müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqlarını nümayiş etdirərək xalqımızın tarixi yaddaşını yaşatmaq missiyasını daşıyır. Muzeyin yaradılmasında əsas məqsəd dövlətçilik tariximizin təbliğindən, xüsusən gənc nəsildə dövlət rəmzlərinə sevgi və ehtiram hissinin daha da gücləndirilməsindən ibarətdir. Burada sərgilənən hər bir eksponat qədim sərkərdələrin sancdığı bayraqlardan tutmuş müasir dövlətçiliyimizin simvoluna qədər xalqımızın tarixindəki zəfərləri və mübarizə ruhunu əks etdirir.

Direktor bildirdi ki, 2017-ci ildə Dövlət Bayrağı Meydanında aparılan yenidənqurma işləri çərçivəsində Dövlət Bayrağı Muzeyi təmirə bağlanıb: “Təmir və bərpa işləri zamanı muzey əməkdaşları eksponatların qorunmasını, saxlanılmasını və yeni nümunələrlə zənginləşdirilməsini təmin ediblər. Təmir işlərindən sonra muzey yeni konsepsiya və tərtibatla fəaliyyətə başlayıb. 2024-cü il noyabrın 8-də Prezidentin sərəncamı ilə muzeyin yeni tərtibatda açılışı olub. Cənab Prezident və Mehriban xanım muzeyi ziyarət edib, ekspozisiya ilə tanış olublar. Burada Azərbaycanın üçrəngli dövlət bayrağı ilə yanaşı, ölkədə müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqları, Bayraq meydanında dalğalanan bayrağımızın dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən “Ginnesin Rekordlar Kitabı” sertifikatı, kitablar və fotoşəkillər nümayiş olunur. Muzeydə 400-dən artıq tarixi nümunə sərgilənir, onların bəziləri yenidir. Azərbaycanın şanlı zəfər tarixini əks etdirən unikal ekspozisiyalar arasında xüsusi diqqət çəkən “Zəfər qalereyası”dır. Qalereya 44 günlük Vətən müharibəsinə həsr edilib. Burada Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə ucaldılan bayraqların təsvirləri, Xankəndi şəhərində keçirilən hərbi paradın unudulmaz fotoları nümayiş etdirilir. Ekspozisiya təkcə keçmişi xatırlatmır, eyni zamanda gələcək nəsillərin qürur mənbəyi kimi mühüm əhəmiyyət daşıyır”.

Muzey hər biri özündə Azərbaycanın zəngin tarixinin müəyyən bir dövrünü əks etdirən altı sərgi salonundan ibarətdir. Könül İmamverdiyeva məlumat verib ki, “A” sərgi salonunda Azərbaycanın qədim və Orta əsrlər dövrünün dövlətlərinə aid 12 bayraq, bayraq ucluqları, hakimiyyət rəmzləri, sikkələr, silahlar və XIX əsr Azərbaycan şəhərlərinin gerbləri nümayiş olunur. Bu salon Azərbaycan xalqının minilliklər boyu dövlətçilik ənənələrini, yaradıcılıq gücünü və mübarizə iradəsini işıqlandırır. Muzeydə 40-a yaxın bayraq nümayiş olunur. Dövlət Bayrağı Muzeyinə ziyarəti zamanı Prezident İlham Əliyevin diqqətini İrəvan xanlığının bayrağı cəlb edib. Bayrağın burada nümayiş etdirilməsi tarixi yaddaşımızı, kökümüzə bağlılığı nümayiş etdirir. Bu bayraq İrəvanın və ətraf bölgələrin Azərbaycan türklərinə məxsusluğunu, həmin ərazilərin tarixən bizim torpaqlarımız olduğunu göstərir. Hər bir sektordakı monitorlarda videomateriallar nümayiş olunur. Müasir toxunuşlar gənclərdə tarixə olan marağı daha da artırır, keçmişimizlə, milli kimliyimizlə olan bağı daha da gücləndirir.

Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünü əhatə edən “B” sərgi salonu tarixin birbirinə zidd, lakin xüsusi əhəmiyyət daşıyan iki dövrünün rəmzlərini təqdim edir. Burada Azərbaycan Xalq Cümhuriyyətinin Parlament zalında 7 dekabr 1918-ci il tarixində asılmış, tarixi əhəmiyyətə malik 107 yaşlı Dövlət bayrağı xüsusi yer tutur. O, muzeydəki iki orijinal bayraqdan biridir. Həmçinin həmin dövrə aid fotoşəkillər, pul əsginasları və poçt markaları nümayiş olunur. Azərbaycan SSR dövründə isə gerblər, bayraqlar, müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları əks etdirən nəşrlər, sovet dövrünün pul əsginasları və poçt markaları maraqla qarşılanır. Bu salon hər iki dövrün Azərbaycanın siyasi və sosial tarixindəki rolunu, inkişafını və çətinliklərini diqqətə çatdırır.

“Müasir Azərbaycan tarixində misilsiz xidmətləri olan Ulu Öndərin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılan “C” sektoru müstəqillik dövrünü əhatə edir. Burada Ümummilli Lider Heydər Əliyevə həsr edilən xatirə medalları və poçt markaları, Azərbaycan Respublikası Prezidentinin ştandartının dublikatı, orden və medallar, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası nümayiş olunur. Salon Vətən müharibəsinə aid xüsusi eksponatlarla zəngindir. Burada Azərbaycanın suverenliyinin bərpası uğrunda aparılan mübarizəni əks etdirən orden və medallar, dünyanın ən yüksək zirvələrində dalğalanan Dövlət bayrağı və həmin bayrağı sancan qəhrəmanların xatirəsi əbədiləşdirilmişdir. Bundan əlavə, müstəqillik tariximizdə mühüm rol oynayan sənədlər - “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında” Prezident İlham Əliyevin 17 noyabr 2007-ci il tarixli sərəncamı, “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2009-cu il tarixli sərəncamı, eləcə də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli qərarından ibarət stend yerləşdirilib. Bu sektorda alpinist İsrafil Aşurlunun dünyanın 21 zirvəsində yüksəltdiyi, hətta Everesti belə fəth etmiş bayraq da nümayiş olunur”, - deyə direktor bildirib.

Dövlət Bayrağı Muzeyinin ən diqqətçəkən guşələrindən biri də Azərbaycan Ordusunun gücünü, tarixini və zəfər ruhunu əks etdirən “D” sərgi salonudur. Burada Azərbaycan Silahlı Qüvvələrinin zəngin tarixini əks etdirən bayraqlar, medallar, emblem və şevronlar sərgilənir. Azərbaycanın hərbi qüdrətini, azadlıq mübarizəsinin tarixi əhəmiyyətini vurğulayan salonda nümayiş olunan hər bir eksponat Vətənimizin müdafiəsi uğrunda göstərilən fədakarlığın və qəhrəmanlığın rəmzidir. “E” və “F” sektorlarında isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mərasim geyim formaları sərgilənir. Hər bir forma Azərbaycan hərbçisinin peşəkarlığını, vətənə bağlılığını əks etdirir. Bundan əlavə, muzeydəki monitorlarda Azərbaycanın qədim və Orta əsrlər, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünə, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki xidmətlərinə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ordu quruculuğuna və Ali Baş Komandanlığı ilə Vətən müharibəsindəki tarixi qələbəyə həsr edilmiş videolar nümayiş olunur.

Bayraq Muzeyi təkcə Azərbaycanın dövlət rəmzlərinin nümayiş olunduğu yer deyil, həm də xalqımızın tarixinin, müstəqillik uğrunda apardığı mübarizənin və milli qürurunun simvoludur. Muzeyi ziyarət edən hər bir şəxs bu müqəddəs rəmzin arxasında dayanan zəngin tarixi və mənəvi dəyərləri daha dərindən hiss edir. Bayrağımıza olan sevgi və ehtiram bu muzeydə bir daha öz təsdiqini tapır. Bu baxımdan Bayraq Muzeyi gələcək nəsillərə milli kimlik və vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır.

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***“Azərbaycan”***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Rusiyanın "Sputnik"i başqa dövlətlərə qarşı dezinformasiya kampaniyasının alətidir"

### Köhnə üsul, yeni hədəf

"Rusiya Jurnalistlər İttifaqının "Sputnik Azərbaycan" agentliyinin əməkdaşlarının həbsi ilə bağlı beynəlxalq təşkilatlara məktub ünvanlaması qərəzli yanaşma olmaqla bərabər, real, obyektiv vəziyyətin kobud formada təhrif olunmasıdır".



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Rusiya tərəfinin mediadan istifadə edərək digər ölkələrə qarşı belə təxribat xarakterli kampaniyalar təşkil etməsi dəfələrlə təkrarlanıb. "Təəssüf ki, Rusiya belə çirkin kampaniyadan ölkəmizə qarşı da istifadə etməyə başlayıb. Məqsəd faktları kobud şəkildə təhrif etməklə beynəlxalq ictimai rəyi manipulyasiya cəhdidir. Faktlar Rusiya tərəfinin iddialarını qəti şəkildə təkzib edir. Məsələ ondadır ki, "Sputnik Azərbaycan"ın rəhbəri İqor Kartavixin və böyük redaktor Yevgeni Belousovun saxlanılmasının onların jurnalistika sahəsində peşə vəzifələrini yerinə yetirmələri ilə heç bir əlaqəsi yoxdur. Həmin şəxslər Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin (FTX) əməkdaşları olaraq, FTX-nin tapşırıqlarını yerinə yetirmək məqsədilə Azərbaycanda olublar. Bu baxımdan onların saxlanılması mövcud qanunvericiliyə tam uyğun və qanuni müstəvidə həyata keçirilən hüquqi tədbirdir", - deyə deputat bildirib.

O qeyd edib ki, "Sputnik"in fəaliyyəti 32 ölkədə, o cümlədən Avropa İttifaqının 27 dövlətinin hamısında rəsmi olaraq qadağan edilib və ya bloklanıb: "Bu qurum Rusiyanın başqa dövlətlərə qarşı həyata keçirdiyi dezinformasiya kampaniyasının aləti rolunda çıxış edir. Rusiya Jurnalistlər İttifaqının belə bir müraciət ünvanlaması absurddur, çünki bu gün Rusiya jurnalistlərin azad fəaliyyət göstərməsinin ən çətin və təhlükəli olduğu ölkələrdən biridir".

V.Rəhimzadə vurğulayıb ki, Rusiyada müstəqil media nümayəndələrinə sistemli təzyiqlər edilməsi adi hala çevrilib: "Belə bir vəziyyətdə Rusiya Jurnalistlər İttifaqının öz ölkəsi daxilində jurnalistlərin təqib edilməsi və söz azadlığının məhdudlaşdırılması problemləri ilə ciddi məşğul olmaq əvəzinə təxribatla məşğul olmaları onların acınacaqlı durumda olduğunu göstərir. Qurum casusluqda şübhəli bilinənləri dəstəkləmək əvəzinə öz ölkəsində real risklərə məruz qalan jurnalistlərin müdafiəsi ilə məşğul olsa daha məqsədəuyğun olar".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Yeni Kaledoniya məsələsinin beynəlmiləlləşdirilməsində Azərbaycanın rolu danılmazdır"

"Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir".



Milli Məclisin deputatı Pərvin Kərimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra nəinki regionda, bütövlükdə beynəlxalq müstəvidə mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib: "Azərbaycan tam müstəqil siyasət həyata keçirir, heç bir mərkəzdən asılı deyil, öz geosiyasi iradəsi əsasında strateji kursunu uğurla davam etdirir. Buna görə də ölkəmizə rəğbət daim artır, yüksək hörmət və etimad göstərilir. Bütün bunların nəticəsidir ki, Azərbaycanın müstəmləkəçilikdən əziyyət çəkən xalqlara siyasi və mənəvi dəstək göstərməsi öz nəticəsini verməkdədir. Məlumdur ki, özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransa əslində tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirib. Bu müstəmləkəçilik siyasətindən müxtəlif xalqlar hələ də əziyyət çəkirlər. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Bakı Təşəbbüs Qrupu Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli tədbirlər keçirir. Həmin tədbirlərdə fransız müstəmləkəçiliyindən əziyyət çəkən xalqların nümayəndələri də fəal iştirak edirlər".

Deputatın sözlərinə görə, bir neçə gün öncə Yeni Kaledoniya ilə bağlı tarixi razılaşmanın imzalanmasında Azərbaycanın bu ərazidə yaşayan yerli xalqa dəstəyinin xüsusi rolu var. İmzalanmış razılaşmaya əsasən, Fransa daxilində xüsusi statusa malik Yeni Kaledoniya dövlətinin yaradılması nəzərdə tutulur. Bu status kaledoniyalılara ikili vətəndaşlıq - Fransa və Kaledoniya vətəndaşı olmaq imkanı verir və onların kimliyini tanımaqla yanaşı, Fransa ilə əlaqəni də saxlayır. Sənədə görə, digər ölkələr də Yeni Kaledoniya dövlətini tanıya biləcək. Bu hadisənin müsbət məqamlarından biri Fransa Prezidenti E.Makronun ilk dəfə Yeni Kaledoniya ilə bağlı danışıqlarda şəxsən iştirak etməsi oldu. Nəzərə alaq ki, Yeni Kaledoniya məsələsinin beynəlmiləlləşdirilməsi bu məsələdə ciddi rol oynayıb. Azərbaycanın burada rolu və töhfəsi hər kəs tərəfindən qəbul edilir. Bundan əlavə, Yeni Kaledoniyanın yeni "unikal status"u digər ərazilər, məsələn, uzun müddətdir ki, öz statusunu dəyişməyə cəhd edən Korsika üçün presedent ola bilər", - deyə Pərvin Kərimzadə bildirib.

Deputat onu da vurğulayıb ki, bu fakt müstəqil Azərbaycanın gücü kimi səciyyələndirilir. Ölkəmiz müxtəlif beynəlxalq platformalar çərçivəsində mühüm təşəbbüslər irəli sürür ki, onlar da beynəlxalq birlik tərəfindən dəstəklənir. Bütün bu uğurlara isə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən praqmatik siyasət nəticəsində nail olunur.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

## Ermənistan silahlı qüvvələri tərəfindən əsir və girov götürülmüş, xəsarətlər almış zərərçəkmişlər məhkəmədə ifadə veriblər

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 17-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Ələddin Əkbərov 1990-cı ildə düşmən tərəfindən girov götürüldüyünü deyib. Girovluqda saxlanıldığı 2 ay müddətində betonun üstündə yatdığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında deyib ki, girovluqda dişləri qırılıb, başı yarılıb, ona digər xəsarətlər yetirilib. Girovluqda olduğu müddətdə çəkisi 87 kiloqramdan 45 kiloqrama düşüb.

Zərərçəkmiş şəxs İdris Məmmədov 1993-cü ilin fevral ayında döyüşlər zamanı əsir götürüldüyünü söyləyib. O, Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan suveren ərazilərində, o cümlədən evlərdən birinin zirzəmisində, Xankəndidə, Şuşa həbsxanasında saxlanıldığını deyib. Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, əsirlikdə saxlanılan zaman işgəncələrə məruz qalıb, dəyənəklə, yumruq və təpiklə döyülüb. Əsirlikdə olduğu üç ay müddətində ona az miqdarda çörək və su verilib.

Zərərçəkmiş Maarif Rüstəmov ifadəsində 2020-ci ildə baş vermiş 44 günlük müharibədə iştirakı zamanı ağır yaralandığını söyləyib. O, hadisənin sentyabrın 27-də Kəlbəcər rayonu istiqamətində, Murovdağda baş verdiyini bildirib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında deyib ki, həmin vaxt özündən başqa daha 2 nəfər yaralanıb, 4 nəfər şəhid olub.

İlham Əsgərov ifadəsində deyib ki, 1993-cü ilin iyul ayında Ağdərə istiqamətində döyüşlərdə 8 nəfər azərbaycanlı hərbçi ilə birlikdə əsir götürülüb. Bildirib ki, onunla birlikdə əsir götürülmüş Azər adlı azərbaycanlı işgəncə və döyülmə nəticəsində ölüb. Beş ay sonra qaçaraq əsirlikdən azad olub. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, əsirlikdə olduğu müddətdə döyülüb və işgəncələrə məruz qalıb: "İndi də əlimdə sınıq, başımda çat izləri qalır".

Bəxtiyar Cəlilov ifadəsində bildirib ki, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Kəlbəcər rayonunda xidmətdə olarkən, oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində yaralanıb.

Süleyman Sofuyev 2016-cı ilin Aprel döyüşlərində əsgər kimi iştirak etdiyini və yaralandığını deyib. O, dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında həmin vaxt Ermənistan silahlı qüvvələrinin onlara qarşı hücuma keçdiyini, hadisənin düşmən qüvvələrindən müdafiə olunarkən baş verdiyini söyləyib.

Söhrab Əsgərov bildirib ki, 2023-cü il mayın 12-də Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralanıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, hadisə zamanı əsgər Məhəmməd Qarayev şəhid olub, daha bir neçə hərbçi isə xəsarətlər alıb.

Teymur Xıdırov 2020-ci ildə baş vermiş 44 günlük müharibədə, noyabrın 3-də avtomobillə gedərkən Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində yaralanıb. Həmin xəsarətlər nəticəsində səhhətində ciddi problem yaranmış zərərçəkmiş şəxs məhkəmədə çətinliklə ifadə verib.

İmran İmranlı ifadəsində 2021-ci il iyulun 27-dən 28-nə keçən gecə Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatı nəticəsində güllə yarası aldığını söyləyib.

Zərərçəkmiş Renat Əliyev bildirib ki, 2020-ci il sentyabrın 14-də Tovuz rayonunda Ermənistan silahlı qüvvələrinin təxribatı zamanı güllə xəsarəti alıb. Nəticədə sağlamlığına ciddi zərər deyib, 35 gün xəstəxanada yatıb.

Şakir İsmayılzadə ifadəsində 44 günlük müharibədə, 2020-ci il noyabrın 3-də Tərtər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib.

44 günlük müharibənin digər iştirakçısı Malid Qənbərov ifadəsində 2020-ci il noyabrın 8-də Daşaltıda Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını deyib.

Vüsal Mahmudov ifadəsində 44 günlük Vətən müharibəsinin başladığı gün - 2020-ci il sentyabrın 27-də çoxsaylı qəlpə yaraları və yanıq xəsarətləri aldığını bildirib.

Etibar Məmmədov ifadəsində 1993-cü ildə Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürüldüyünü deyib. O, 7 ay Şuşa həbsxanasında saxlanılıb. E.Məmmədov özünə və digər azərbaycanlı əsir və girovlara işgəncələr verildiyini, nəticədə ölənlərin olduğunu bildirib.

Şirin Bayramov bildirib ki, 1994-cü il yanvarın 12-də Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, Xankəndidəki keçmiş 366-cı alayın olduğu yerə aparılıb. 8 ay Xankəndidə saxlanılıb. Əsirlikdə olduğu müddətdə mütəmadi olaraq döyülüb, ləyaqətini alçaldan hərəkətlərə məruz qalıb. "Üç dəfə burnum qırılıb və digər xəsarətlər yetirilib", - deyə Ş.Bayramov qeyd edib. O, Azərbaycanın həmin vaxt Ermənistanın işğalı altında olan digər suveren ərazilərinə aparılan zaman bir neçə nəfər azərbaycanlı əsir və girovla birlikdə qaçıb.

Zərərçəkmişin qardaşı - digər zərərçəkmiş şəxs Ağagül Bayramov ifadəsində 1994-cü il yanvarın 12-də qardaşı ilə birlikdə əsir götürüldüyünü bildirib. O, Ş.Bayramovla müqayisədə daha çox - 2 il 5 ay əsirlikdə qalıb.

Firəngül Kərimova ifadəsində Xocalıdan məcburi köçkün düşdüyünü, soyqırımının şahidlərindən olduğunu bildirib. Soyqırımı zamanı onun 4 doğması qətlə yetirilib. Bu şəxslər F.Kərimovanın atası - Kərimov Firuz Samran oğlu, babası - Kərimov Samran Soltan oğlu, nənəsi - Kərimova Firəngül Məmməd qızı və əmisi - Kərimov Soltan Samran oğludur.

"Mart ayının 20-də atamın, nənəmin və babamın meyitləri eyni yerdə tapıldı. Atam leytenant Firuz Kərimov çox dəhşətli işgəncələrlə qətlə yetirilmişdi. Hətta alnının dərisi soyulmuş vəziyyətdə idi. Nənəmin bir ayağı, bud hissəsindən aşağısı tamam yox idi", - deyə o əlavə edib.

Sadiq Xudayarov ifadəsində Xocalı soyqırımı zamanı - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə babasıgildə olduğunu bildirib. Onlar evlərini tərk etmək məcburiyyətində qalıb. Fevralın 27-də düşmən qüvvələri ilə rastlaşıblar. Həmin vaxt düşmənin açdığı atəşlər nəticəsində Mehdi adlı azərbaycanlı öldürülüb, S.Xudayarovun əmisi ayağından yaralanıb. Düşmən onları böyük dama yığıb. S.Xudaverdiyev bildirib ki, avtomatın qundağı ilə xəsarət yetirilməsi nəticəsində anası ikinci qrup əlil olub. Atası da işgəncələrə məruz qalıb, qabırğaları sındırılıb.

Fərzani Nəcəfzadə ifadəsində 2022-ci ilin avqust ayında Hadrutda düşmənin basdırdığı minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Zamin Hətəmli ifadəsində göstərib ki, 2023-cü il dekabrın 7-də traktorla torpaq şumlayarkən Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndi ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarət alıb, traktor isə yanaraq məhv olub.

Rəsul Cəfərov 1993-cü il yanvarın 4-də əsgər yoldaşı Afiq Qasımovla birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Onlar əvvəlcə Ağdərədə, daha sonra Qırmızı Bazarda və Şuşada saxlanılıblar. Əsirlik müddətində ona və digər azərbaycanlılara işgəncələr verilib. Üzərilərinə qaynar su tökülüb, bədəni bıçaqla kəsilib. "İndi mənim bədənimdə salamat yer yoxdur", - deyə o bildirib. Qırmızı Bazarda fermada saxlanılarkən Artur adlı erməni Habil Bayramov adlı azərbaycanlının çənəsini qırıb. H.Bayramov yemək yeyə bilməməsi və aldığı xəsarətlər nəticəsində bir həftə sonra ölüb. Ermənistan silahlı qüvvələri hərbçilərinin göstərişi ilə azərbaycanlı əsir və girovlar H.Bayramovun meyitini fermanın yaxınlığında torpağı qazaraq basdırıblar. R.Cəfərov avqustun 24-də əsirlikdən azad edilib.

Nail Nağızadə ifadəsində 2016-cı il aprelin 2-də Tərtərdə Ermənistan silahlı qüvvələrinin açdığı snayper atəşi nəticəsində yaralandığını söyləyib. O, təqsirləndirilən şəxs Levon Mnatsakanyanın sualına cavabında hadisənin Ermənistan silahlı qüvvələrinin hücumundan müdafiə olunan zaman baş verdiyini deyib.

Cahid İsmayılov ifadəsində 44 günlük müharibədə, 2020-ci il oktyabrın 2-də Göygöl rayonunda yerləşən döyüş postunda düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxslər - Səbuhi İbrahimov və Səxavət Rəşidov ifadələrində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Zərərçəkmiş Tarzan Musayev ifadəsində 44 günlük müharibə zamanı, 2020-ci il oktyabrın 10-da düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində qapalı kəllə-beyin travması aldığını deyib.

Babək Məmmədli ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Talış kəndi istiqamətində, Şiştəpə postunda yaralandığını bildirib. O, 44 günlük müharibədə əkiz qardaşı Cavidan Məmmədlinin şəhid olduğunu, nəşinin 127 gündən sonra qaytarıldığını deyib.

Yasin Mehralıyev işğaldan azad edilmiş Xocalı rayonunun Sığnaq kəndində şirkətlərdən birinin əməkdaşı qismində çalışarkən düşmən tərəfindən basdırılmış minaya düşərək xəsarət aldığını söyləyib.

Şamil Məmmədov ifadəsində 2022-ci il iyulun 14-də yük maşını ilə "Azərsun" şirkətinə aid olan sahədən - Cəbrayıl rayonunun Dağ Tumas kəndindən buğda gətirərkən düşmən tərəfindən basdırılmış iki ədəd tankəleyhinə minanın partlaması nəticəsində xəsarət aldığını bildirib. Nəticədə sol ayağı amputasiya edilib.

Vaqif Həsənov ifadəsində 1988-ci ilədək Xocalının Xanabad kəndində yaşadığını, ermənilər tərəfindən 4 azyaşlı övladı ilə hədələnərək kənddən məcburi şəkildə köçkün düşdüyünü bildirib. O, Ağdam rayonunda məskunlaşıb. "Mənim iki evim talanıb", - deyə zərərçəkmiş şəxs bildirib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

Azərbaycan Milli Mətbuatı - 150

# Publisistikadan gələn notlar

## və ya ədəbi-tənqidi düşüncədə publisistik kəsər

**Ədəbi təcrübə insan, həyat və zaman, cəmiyyətdə gedən proseslər haqqında o vaxt mötəbər və səlahiyyətli fikir formalaşdırmaq qüdrətində olur ki, o, həyat həqiqətlərinə söykənsin, ondan güc alsın, real gerçəklikləri bədii sözün imkanları ilə inandırıcı və yaddaqalan lövhələrlə canlandıra bilsin, oxucu qəlbini və düşüncəsini sənətin ecazkar qüdrəti ilə fəth etmək iqtidarında olsun. Bu mənada ədəbiyyatın fəlsəfəsini açan, onun təhlil və ümumiləşdirilməsinə cəhd göstərən ədəbi tənqidin də üzərinə daha məsul və ciddi vəzifələr düşür. Həyati gerçəkliklə bədii həqiqət arasında tənasübü üzə çıxarmaq, onu təhlilin əsas hədəfinə çevirmək, ən yaxşı tənqid nümunələrində dəyişməz dəyər və sənət meyarı kimi müəyyənləşməsi estetik tələbat və qanunauyğunluqdan irəli gəlir.**



Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qulu Xəlilov bu mərhələdə tənqidçilik fəaliyyətinə başlayan, elmi-nəzəri fikrin ən müxtəlif yaradıcılıq problemlərini ümumiləşdirən, ədəbi prosesin ayrı-ayrı fakt və hadisələri, ümumi mənzərəsi barədə cəsarətli, prinsipial mövqedən fikir söyləyən, polemik xarakteri və erudisiyası ilə seçilən tənqidçi kimi tanınır.

Ədəbi tənqid Qulu Xəlilovun elmi fəaliyyətinin əsas və aparıcı istiqamətlərindən biri idi. Müasir ədəbi prosesin yaradıcılıq problemlərinə münasibət bildirməklə yanaşı, cəmiyyətdə gedən mənəvi-əxlaqi aşınmaların, ətraf mühitdə, təbiətdə ekoloji tarazlığın pozulma hallarının, sosial-iqtisadi problemlərin kəskin və barışmaz mövqedən münasibət hədəfi seçilməsində Qulu Xəlilovun tənqidçi təfəkkürü fəal surətdə iştirak edirdi. Bu baxımdan onun publisistikasında tənqid, ədəbi-tənqidi düşüncə və mülahizələrində publisistika, publisistik çalar vəhdət halında özünü bütün güc və enerjisi ilə təzahür etdirirdi.

Sözsüz ki, burada sırf ixtisasdan irəli gələn məqamlardan da yan keçmək olmaz. Qulu Xəlilov ixtisasca jurnalist idi. O, universitetin Filologiya fakültəsinin jurnalistika bölməsini bitirmişdi. Bu sahəyə aid cəsarətli problem yazıları, aktual mövzulara toxunan publisist düşüncələri ilə geniş oxucu kütlələrinin rəğbətini qazanan və etiraf olunan qələm sahibi kimi də tanınırdı. Bir əlamətdar cəhəti də xüsusi olaraq qeyd etmək lazımdır ki, Qulu Xəlilovun publisist qələmindəki ictimai kəsər və mündəricənin ədəbi-tənqidi yazılarına sızması da müşahidə olunurdu ki, belə bir xüsusiyyət eyni zamanda özünün ikili xüsusiyyəti ilə yadda qalırdı:

- publisistika sahəsində fəaliyyətdən irəli gələn ünsür və elementlər şəklində;
- ədəbi tənqidin estetik təbiətində, elmi-nəzəri strukturunda yer alan publisistik çalar və kəsər səviyyəsində.

Onu da unutmaq olmaz ki, ən yaxşı ədəbi-tənqidi mühakimədə publisistikanın iştirakını heç cür danmaq olmaz. Bir şərtlə ki, burada proporsiya gözlənilsin. Buna Qulu Xəlilovun ədəbi-tənqidi irsindən nümunə də gətirmək olar: "Həyat və ədəbiyyat". Həmin məqalənin janr təsnifatını müəllif özü düzgün müəyyənləşdirib: tənqidi-publisistik oçerk! Həcm etibarilə böyük olan bu oçerkin ilk cümlələrindən boy göstərən publisistikanın əlamətlərini də açıq-aydın görmək mümkündür. Əlbəttə, belə bir bütövlük və monolit vəhdət Qulu Xəlilovun mühakimələrinə canlılıq, emosionallıq kimi keyfiyyətlər aşılayır, nəticə etibarilə xalqla, geniş kütlələrlə birbaşa təmas və ünsiyyətə əlverişli zəmin yaradırdı.

Publisistika və ədəbi tənqid Qulu Xəlilovun ümumi fəaliyyəti üçün həyati əhəmiyyətli problemlərə münasibət bildirmək, onun həlli yolları haqqında düşüncələrini bölüşmək və ədəbi mübarizəyə qoşulmaq üçün bir vasitəyə çevrilmişdi.

Bu baxımdan onun tənqidçi, publisist və yazıçı obrazını şəxsiyyət və xarakterindən kənarda axtarmaq mütləq şəkildə yanlışlığa gətirib çıxaracaq.

Qulu Xəlilov həyatın dibindən çıxan, öz alın yazısına düzəlişlər edən, şəxsi taleyinə yeni səhifələr yazan, heç vaxt yenilməyən, mübariz xarakteri ilə seçilən, əqidəsi və məsləki yolunda bir ömür boyu çarpışan mücadiləçi idi.

Qulu Xəlilov güclü şəxsiyyət idi. Bu güc və qüdrəti o, mənsub olduğu xalqdan, onun dərin humanizmə və mənəviyyata söykənən dəyərlərindən əxz eləmişdi. Obrazlı şəkildə desək, xalq mənəviyyatından və müdrikliyindən gələn, əsrlərin sınağından çıxan yaşarı dəyərlər onun əxlaq kodeksinə çevrilmişdi.

Qulu Xəlilov həyatsevər, həyat və cəmiyyət məsələlərini özünün ədəbi-tənqidi, bədii-publisistik əsərlərində bütün mənzərəsi ilə canlandıran, bunu özünün yaradıcılıq amalına çevirməyi bacaran bir şəxsiyyət idi.

Qulu Xəlilov baş verən müxtəlif xarakterli proseslərin mahiyyətini öz yazılarında, kütləvi informasiya vasitələrində, radio dalğalarında, televiziya ekranlarında özünəməxsus çılğınlıqla, cəsarətlə şərh edən cəmiyyətşünas kimi geniş xalq kütlələri içərisində rəğbətlə, xüsusi ehtiramla qarşılanan vətəndaş ziyalı idi.

Qulu Xəlilov özünün dərin həyati müşahidə qabiliyyəti və onun nəticəsi kimi araya-ərsəyə gətirdiyi düşüncələrini bütün yaradıcılıq sahələrində realizə etmək qabiliyyətinə malik müqtədir qələm sahiblərindən biri kimi tanınır və sevilirdi ki, bu da hər bir qələm sahibinə müyəssər olmayan tənqidçi xoşbəxtliyi, aktual problemlərə toxunan publisistik məqalə və kitabları ilə gündəmdə qalan jurnalist peşəkarlığı, oxunaqlı, şirin təhkiyəsi ilə seçilən yazıçı özünütəsdiqi idi.

Tənqidçilik Qulu Xəlilovun elmi-nəzəri fəaliyyətinin aparıcı istiqamətlərindən biri idi. Onun ilk ədəbi-tənqidi məqaləsi hələ universitet tələbəsi olarkən dövri mətbuat səhifələrində işıq üzü görmüşdü. İlk qələm təcrübələrində Qulu Xəlilov ədəbi prosesi bütün mənzərəsi ilə olmasa da, onun yaradıcılıq axtarışları və meyilləri haqqında müəyyən qənaət hasil edən fikir və mülahizələrin irəli sürülməsi bu illərin payına düşür. Şübhəsiz ki, Qulu Xəlilovun tənqidçilik fəaliyyətinin yetkin bir səviyyəyə gəlib çatması 50-ci illərin sonlarından və 60-cı illərin əvvəllərindən etibarən daha fəal xarakter almağa başlayır. Poeziya, nəsr, dramaturgiya, publisistika kimi sahələrə həsr olunan məqalə və rəylərində, tədqiq xarakterli araşdırmalarında o, özünəməxsus tənqidçi ədası ilə seçilən qələm və təfəkkür sahibi kimi çıxış edir, geniş oxucu auditoriyasının maraq və ehtiyaclarını həssaslıqla duyan sadə, oxunaqlı dil və üslub onun tənqidinə fərdi, özünəməxsus keyfiyyətlər gətirən əsas amillərdən birinə çevrilir.

Qulu Xəlilov ədəbi-tənqidi məqalələrini ədəbi tənqidin müxtəlif janrlarında qələmə almış və belə bir müxtəliflik münasibət müstəvisinə çıxarılan yaradıcılıq problemlərinin mahiyyətindən irəli gəlirdi. Resenziya (rəy), problem məqalə, elmi oçerk, tənqidi-publisistik oçerk, açıq məktub, ədəbi portret, icmal, monoqrafiya Qulu Xəlilovun müraciət etdiyi əsas janrlardan idi. Bunlar tənqidçinin poeziyanın mövzu və sənətkarlıq məsələlərinə həsr olunan məqalələrinə də şamil oluna bilər.

Məlumdur ki, ədəbi tənqidin bilavasitə təhlil və ümumiləşdirmə predmeti seçdiyi sahə, müasir ədəbi prosesdir. Bu, heç də o demək deyil ki, klassik irs, onun zaman-zaman formalaşan yaradıcılıq ənənələri ədəbi-tənqidi mülahizələrdə kənarda qalmalıdır. Qulu Xəlilovun poeziyaya həsr olunan yazılarında bu mənada tarixiliklə müasirlik qoşa addımlayan, bir-birinə dayaq və dəstək olan nəzəri-estetik kateqoriyalar kimi mühüm dəyər daşıyır. Bu yöndən yanaşanda Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid... kimi sənətkarların yaradıcılığında diqqəti çəkən elə xüsusiyyətlər yoxdur ki, Qulu Xəlilovun müasir poeziya ilə bağlı məqalə və tədqiqlərində elmi dövriyyəyə gətirilməsin.

Müasirlik Qulu Xəlilovun ədəbi-tənqidi fəaliyyətində özünü qabarıq nümayiş etdirən bir keyfiyyət göstəricisi idi. Belə bir əlamətdar cəhət bir tənqidçi kimi onun elmi-nəzəri axtarışlarının mahiyyət və məğzini müəyyənləşdirən əsas estetik kateqoriya kimi üzə çıxır, müəllifin ədəbiyyat və sənət, həyat və cəmiyyət kimi mürəkkəb məsələlərin izah və təfsirində, idrak süzgəcindən keçirilməsində önə çəkilən problemlərə aydın və konseptual münasibəti gerçəkləşdirən bir meyara çevrilirdi. Məsələn, o, keçən əsrin 60-cı illərinin və konkret olaraq bir ilin (1960-cı ilin) poetik təcrübəsində lirikanın aparıcı yaradıcılıq məziyyətlərini ədəbi tənqidin icmal janrında qələmə aldığı bir məqalədə heç təsadüfi deyil ki, "Lirikamızda müasirlik" (1960-cı il şeirimiz haqqında) adlandırırdı.

Tənqidçilik və tənqidçi statusu həm zaman, həm də nəzəri-estetik kateqoriya mənasında müasirlik anlayışından kənarda təsəvvürə gətirilə bilməz. Bu baxımdan Qulu Xəlilov sözün həqiqi mənasında öz sələflərinin yolunu, yaradıcılıq ənənələrini davam etdirən bir tənqidçi idi. Onun Azərbaycan poeziyasının XX yüzillikdə yaşayıb-yaradan sənətkarlarından xalq şairləri Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi klassik nümayəndələrin, Böyük Vətən müharibəsi və ondan sonrakı mərhələnin təmsilçiləri olan Qasım Qasımzadə, Hüseyn Hüseynzadə (Hüseyn Arif), Nəbi Xəzri, Teymur Elçin, Bəxtiyar Vahabzadə, Qabil, Əliağa Kürçaylı, Əli Kərim, Fikrət Sadıq, Nəriman Həsənzadə, Xəlil Rza, Məmməd Araz, Famil Mehdi... kimi şairlərin yaradıcılığına həsr olunan məqalələrində, icmallarında ənənə və varislik prinsipial, davamlı xarakter daşıyan yaradıcılıq stixiyası kimi bir məna və mahiyyət daşıyır.

İyirminci yüzilliyin klassiki kimi ədəbiyyat tarixində özünə şərəfli yer tutan Xalq şairi Səməd Vurğunun yaradıcılığı Qulu Xəlilovun tədqiq xarakterli araşdırmalarında, ədəbi-tənqidi məqalələrində özünün əhatəli elmi təfsir və şərhini tapırdı. Onun bir tədqiqatçı kimi şairin yaradıcılığına elmi marağı keçən əsrin 50-ci illərinin ikinci yarısından başlayır. Bu vaxtdan etibarən (1956-1959) Qulu Xəlilov aspirant kimi "Vaqif" pyesi və tarixi dram janrı" mövzusunda namizədlik dissertasiyası üzərində çalışır, şairin yaradıcılıq irsini və bu istiqamətdə yazılan elmi-nəzəri fikir və mülahizələri diqqətlə nəzərdən keçirməyə nail olurdu. Elmi tədqiqat işinin qarşısına qoyulan tələblərdən asılı olaraq ilk baxışda elə düşünülə bilərdi ki, burada ədəbi tənqidin fəal iştirakından söhbət belə gedə bilməz. Ancaq bu, ilk baxışda belə təəssürat yaradır. Daha sonralar monoqrafiya kimi nəşr olunan tədqiqatla tanışlıq tamam fərqli bir həqiqəti ortaya çıxarır: aparılan təhlil və şərhlərdə tənqidi analiz və yanaşmalar kifayət qədər görüntüyə gətirilir, aparılan müqayisələrdə tarixiliklə müasirliyin bir-birini məntiqi ardıcıllıqla tamamlayaraq önə çəkilməsi aydın nəzərə çarpırdı. Səməd Vurğunun yaradıcılığı təhlil olunan məqalələrdə Qulu Xəlilov şairin lirikasını, şeirin bu növündə nail olunan sənətkarlıq məsələlərini, epik səpkili əsərlərin mövzu, ideya-məzmun xüsusiyyətlərini, ədəbiyyatın nəzəri problemləri ilə bağlı məqalə və çıxışlarını obyektiv tənqidçi mövqeyindən dəyərləndirməyə nail olur.

"Zəngin xəzinə", "Torpağımızın ulu tərənnümçüsü" adlı məqalələrdə Səməd Vurğundan postsovet məkanında və dünyanın müxtəlif meridianlarında Azərbaycan poeziyasını ləyaqətlə təmsil edən bir sənətkar kimi bəhs olunur, onun milli məhdudiyyət və sərhəd tanımayan şöhrəti barədə səmimi və inandırıcı faktlar əsasında mülahizələr irəli sürülür.

Qulu Xəlilovun "Rəsul Rza" monoqrafiyası (Məsud Vəliyevlə - Məsud Əlioğlu ilə birlikdə) Rəsul Rzanın keçən əsrin 60-cı illərinin tamamilə yenilikçi və novator mahiyyəti ilə seçilən poeziyasına həsr olunan ilk nümunə kimi diqqəti cəlb edir. Müəlliflər Rəsul Rza poeziyasına məxsus yaradıcılıq məziyyətlərini, şairin sənətkar fərdiyyətinə məxsus səciyyəvi keyfiyyətləri hazır qəlib və yanaşmalar çərçivəsindən tamamilə fərqli bir tərzdə, üsul və meyarlar əsasında üzə çıxarmağa çalışırlar ki, burada da tənqid və tənqidçi münasibəti üst qatda görünən bir səviyyədə özünü göstərir. Sonralar Qulu Xəlilov həmin monoqrafiyanın müəllifi olduğu hissələri "Yeni söz və yeni fikir uğrunda" adı altında ədəbi-tənqidi məqalələrdən ibarət kitablarından birinə daxil etmiş və həmin bölmələrdə şairin sənət kredosuna verilən qiymət bugünkü dəyərlər prizmasından da obyektiv təsir bağışlayır: "Rəsul Rza tapdanmış, şablon yolla gedən şairlərdən deyildir. O, hər şeydən əvvəl, klassik Azərbaycan şeirinin, eləcə də rus və dünya poeziyasının mütərəqqi ənənələrinə sadiq bir şair kimi həmişə özü yeni ifadə formaları, bədii vasitələr axtarıb tapır, özünəməxsus orijinal xüsusiyyətlərlə çıxış edir" ("Həyat və idrak", Bakı: "Yazıçı" nəşriyyatı, 1980, s.32). Bu, altmış il bundan əvvəl irəli sürülən mülahizələrdir. Və bu fikirlər bu gün də dəqiq müşahidənin məhsulu kimi öz aktuallığını qoruyub saxlamaq gücündədir.

Gənc ədəbi qüvvələrin poetik axtarışları da Qulu Xəlilovun poeziyaya həsr olunan məqalə və icmallarında əhəmiyyətli yerlərdən birini tuturdu. Keçən əsrin 70-ci illərinin gənc qələm sahiblərindən olan Sabir Rüstəmxanlı, Eldar Baxış, Musa Ələkbərli, Zəlimxan Yaqub kimi eyni ədəbi nəslin nümayəndələri olan, ancaq yaradıcılıq fərdiyyətləri ilə seçilən şairlərin yeni işıq üzü görən şeir toplularını təhlil edən resenziyalarla və ya açıq məktub kimi janrlarla mətbuat səhifələrində çıxış etməsi, cari ədəbi prosesdə yeni görünən imzaların və ədəbi qüvvələrin yaradıcılıq axtarışları barədə yetərincə təsəvvür yaradan "Gənclik və müasir həyat" icmalları buna əyani nümunə kimi göstərilə bilər.

Poeziya ilə yanaşı, nəsrin yaradıcılıq problemləri Qulu Xəlilovun elmi-nəzəri irsində, ədəbi-tənqidi məqalələrində əsas mövzu və problem kimi aparıcı yerlərdən birini tuturdu. Bu həm də tənqidçinin ədəbi-tənqidi fəaliyyətinin əhatə dairəsi, toxunulan yaradıcılıq məsələlərinin geniş miqyası barədə fikir yürütməyə kifayət qədər əsas verir.

Keçən əsrin 50-ci illərinin ikinci yarısının nəsr təsərrüfatını ümumiləşdirən "Böyük sənət uğrunda" (1962) kitabındakı üç məqalədən ikisi - "Böyük sənət uğrunda" və "Nəsr əsərlərimizə aid qeydlər" adlı icmallar fakt zənginliyi, yeni yaranan nümunələrin mövzusu, ideya-sənətkarlıq xüsusiyyətlərinin obyektiv və prinsipiallıqla təhlilə yönəldilməsi ilə diqqəti cəlb edirdi. Nəsrə belə tədqiq və təhlil marağı müəllifin sonralar nəşr olunan kitablarına toplanan məqalə və resenziyalarında daha səriştəli və professional səviyyədən araşdırılır, epik növdə yaranan bu nümunələrdə yeni meyillər, yaradıcılıq axtarışları, o cümlədən nəzərəçarpan qüsurlar barədə mülahizələr irəli sürülürdü. Bu baxımdan tənqidçinin "Sənət və sənətkar" (1966) adlı məqalələrdən ibarət kitabında altı məqalədən dördü bilavasitə nəsrin yaradıcılıq problemlərinə həsr olunması bu yaradıcılıq sahəsinin inkişaf meyillərinə, formalaşma mərhələlərinə, ayrı-ayrı tanınmış nümayəndələrinin yaradıcılıq yoluna və yeni yaranan nümunələrinə həsr olunması iki istiqamətdən diqqəti cəlb edirdi: birinci: burada Azərbaycan ədəbiyyatında son dərəcə əhəmiyyət kəsb edən bir yaradıcılıq cərəyanının və inikas üsulunun mövcudluğunu çoxsaylı faktlar əsasında müəyyənləşdirən, özünün elmi-nəzəri siqləti ilə seçilən "Azərbaycan romanında realizm" adlı məqalədə roman janrının həyati gerçəkliklərə, insan xarakterlərinə fəal, yeni bir baxış və rakursdan münasibət bildirməsi yetərincə əsaslandırılır.

Mövzu baxımından siyasi inqilablar dövrünə təsadüf edən, kəndli düşüncəsində yaranan yeni təbəddülatların təsvirə gətirilməsi baxımından diqqəti çəkən nəsr nümunəsi kimi tənqidçinin Xalq yazıçısı Süleyman Rəhimovun "Şamo" romanını seçməsi və bu xüsusda tamamilə fərqli bir baxış bucağından roman-epopeyanı dəyərləndirməsi diqqəti çəkən məqamlardan biri kimi yadda qalır. Məqalədən gətirilən kiçik bir qeydlə fikrimizi əsaslandırmağa çalışaq: "Azərbaycan kəndinin oyanması, təşəkkülü, yeni həyat uğrunda mübarizəsi, xalq həyatının rəngarəng sahələri, məişəti, adət-ənənəsi, etnoqrafiya xüsusiyyətləri, müxtəlif təbəqələrin psixologiyası heç bir romanımızda "Şamo"dakı qədər geniş, canlı və koloritli təsvir olunmamışdır" ("Dağ vüqarlı sənətkar" məqaləsi, "Tənqidçilik çətin peşədir", Bakı: "Yazıçı" nəşriyyatı, 1986, s.92, Qeyd: Kitabın adındakı tənqidçiliyin çətinliyi ilə bağlı fikir tamamilə doğrudur, ancaq onun peşə kimi təqdim olunması mübahisə doğurur - Q. M.). İndi bu mövzuya və adıçəkilən romana tamamilə fərqli yanaşmanın olmasını başa düşmək olar. Tənqidçinin Azərbaycan kəndlisinə "böyük xoşbəxtlik gətirən inqilaba" münasibətdən danışmağını birmənalı şəkildə qəbul etmək çətindir. Ancaq bir tənqidçi kimi Qulu Xəlilovun yazıçıya və bədii fakta xeyirxah münasibətini burada görməmək mümkün deyil. Eyni yanaşmanı tənqidçinin açıq məktub janrlarında qələmə aldığı "Yazıçı Əli Vəliyevə açıq məktub", "Teleqram" müəllifinə açıq məktub" məqalələrində də yaxından müşahidə etmək mümkündür.

Qulu Xəlilovun "Azərbaycan romanının inkişaf tarixindən" mövzusunda tamamladığı doktorluq dissertasiyası epik janrın keçmiş olduğu tarixi təkamül yolunu və mərhələlərini faktik materiallar əsasında araşdırması baxımından əhəmiyyət daşıyır. Şübhəsiz ki, müəllifi bu monoqrafik tədqiqata gətirib çıxaran və bu problemin elmi-nəzəri aspektdən araşdırılmasına istiqamətləndirən məqamları bu sahəyə aid proses yazılarından kənarda təsəvvür etmək doğru olmaz.

Müəllif bu tədqiqat əsərində Azərbaycan romanının əsas mənbələri və yarandığı tarixi şərait, yaradıcılıq ənənələri, mövzusu və ideya məzmunu kimi məsələləri tarixi-müqayisəli şəkildə ( bu metodun verdiyi imkanlardan yararlanmaqla) nəzərdən keçirərək ümumiləşdirir, konkret elmi qənaətlərə gəlir. Mərhələ kimi götürülməsi baxımından Azərbaycan romanının sovet dönəmində qazanmış olduğu yaradıcılıq xüsusiyyətləri, bu mərhələdə araya-ərsəyə gələn epik nümunələrdə inqilab mövzusunun inikası kimi məsələlərə yer verilməsi də diqqətdən qaçmır. Keçən əsrin 60-cı illərində yazılan bir tədqiqatda belə halların olmasını başa düşmək çətin deyil. Bunun dövrün siyasi konyunkturasından irəli gələn bir yanaşma olduğunu da mütləq nəzərə almaq lazımdır.

Azərbaycan romanının bədii strukturunda aparıcı komponentlərdən olan süjet, konflikt və xarakter, tipiklik kimi nəzəri məsələlərin qoyuluşu tədqiqata nəzəri sanbal gətirən mühüm keyfiyyətlər sırasında xüsusi olaraq qeyd olunmalıdır. Tədqiqatda dil və üslub məsələlərinə ayrıca yer ayrılması istər inqilabaqədərki, istərsə də sovet quruluşunun mövcud olduğu dönəmlərin yaradıcılıq təcrübəsində romanın sənətkarlıq baxımından qazanmış olduğu nailiyyətlər və nəzərəçarpan nöqsanlar barədə müfəssəl qənaət hasil edilir.

Roman janrının nəzəri baxımdan araşdırılması Qulu Xəlilovun sonrakı onilliklərdə nəşr olunan ədəbi-tənqidi məqalələrindən ibarət kitablarında bu sahə ilə bağlı axtarışlara ardıcıl elmi maraq və münasibətini əyani şəkildə göstərirdi. "Həyat yaradıcılıq çeşməsidir"(1974) adlı kitabda "Roman nəzəriyyəsi haqqında", "Müsbət qəhrəman haqqında" adlı məqalələr belə bir ardıcıl elmi maraqdan soraq verir.

Qulu Xəlilovun bu silsilədən olan məqalələrinin elmi-nəzəri əhəmiyyəti, xüsusi olaraq "Müsbət qəhrəman haqqında" məqaləsi ilə bağlı vaxtilə mətbuat səhifələrində münasibət bildirilən mülahizələr bu baxımdan diqqəti çəkir. Vaxtilə tənqidçi Rəhim Əliyev həmin məqalənin elmi sanbalı, ədəbi prosesi təhlil predmetinə çevirməsi ilə bağlı irəli sürdüyü mülahizələr bu baxımdan maraq doğurur: "Müsbət qəhrəman haqqında" məqalə müəllifin tənqidçi fərdiyyətini daha yaxşı təqdim və təmsil edir. Burada bütünlükdə ədəbi proses təhlil predmetinə çevrilir. Ədəbiyyatımızın bütöv bir mərhələsi üçün səciyyəvi olan qüsurlu meyillər təhlil edilir, dəqiq, ümumiləşdirici estetik qiymət alır. Məqalənin əsas məziyyəti ondadır ki, burada ədəbiyyatımızın müəyyən dövrünə aid, bədiilik baxımından səciyyəvi qüsurlar aydın məfkurəvi və estetik mövqedən araşdırılır. Bu mövqe aydın olmaqdan başqa, həm də fəaldır, istiqamətvericidir. Müəllif öz estetik idealına və meyarına uyğun gəlməyən hər şeyi məntiqlə, cəsarətlə tənqid edir" ("Tənqidçinin mövqeyi", "Ədəbiyyat və incəsənət" qəzeti, 11 dekabr, 1976).

Yaradıcılığının böyük bir hissəsi XX yüzilliyin payına düşən Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli kimi sənətkarların nəsr yaradıcılığı Qulu Xəlilovun məqalələrində tarixilik müstəvisində nəzərdən keçirilərək təhlilə cəlb olunan, nəticə etibarilə bu istiqamətdə yekdil təsəvvür yaradılan mülahizələr kimi dəyərləndirilə bilər.

Qulu Xəlilovun dramaturgiya, tamaşaya qoyulan dram əsərlərinin səhnə təcəssümü ilə bağlı məqalə və resenziyaları poeziya və nəsrə həsr olunan yazılarla müqayisədə azdır. Əlbəttə, söhbət burada kəmiyyətdən getmir, məsələnin vacib tərəfi sənət faktının sanbal və səviyyəsi ilə, günün tələbləri ilə səsləşməsi əsas məqsəd və niyyətdir. Bu məqalə və rəylərdə Qulu Xəlilovun tənqidinə xas olan belə xarakterik xüsusiyyətləri də görmək olurdu.

*Müxtəlif yaradıcılıq sahələrinə fəal tənqidçi mövqeyindən yanaşma Qulu Xəlilovun "...hərəkət edən estetika" sahəsində fəaliyyətinə vüsət gətirir və professionallıq keyfiyyətləri aşılayırdı. Müasir elmi-nəzəri dövriyyədə onun publisistik kəsəri ilə seçilən ədəbi-tənqidi mülahizələrinə yaşamaq haqqı verən məziyyətlər belə məqamlarda özünü daha parlaq şəkildə göstərir. Bu həm də Qulu Xəlilovun tənqidçi-publisist kimi yaşamaq haqqının təntənəsidir.*

***Qürbət MİRZƏZADƏ,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Mədəniyyət



Seyid Əzim Şirvani - 190

# Ölümsüzlüyünə sağlığında inanırdı

## "Seyyida, ölmərəm, aləmdə səsim var mənim"

**Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında bu il aprelin 4-də Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: "Seyid Əzim Şirvani yaradıcılığı boyu həm Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair, eyni zamanda realist satiralarında dövrün aktual məsələlərinə kəskin münasibət bildirmiş, didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir".**

XIX əsrdən bu günümüzə uzanan o izi salmaq, yeni yol açmaq Azərbaycanın bu istedadlı oğlu üçün asan olmadı...

Əslində, qarşısında keçilmiş, cəmiyyətin təqdir etdiyi yollar vardı. 1835-ci il iyulun 9-da Şamaxı şəhərinin Qalabazar məhəlləsində, ruhani ailəsində dünyaya göz açan Əzim hörmət-izzət sahibi olan bir ailənin övladıydı. Atası Seyid Məhəmməd nüfuz sahibiydi.

Taleyi Seyid Məhəmmədin üzünə gülmədi. Sevimli oğlunu böyüdüb boya-başa çatdırmaq ona nəsib olmadı. Seyid Əzim hələ kiçik ikən atası dünyadan köçdü. Anası Gülsüm xanıma sığındı. Ana babası Molla Hüseyn onları yaşadığı Dağıstanın Yaqsay kəndinə apardı. Oğlu olmayan Molla Hüseyn nəvəsini doğma oğlu kimi böyütməyə başladı.

### Maarifçi, pedaqoq

Gözüaçıq, zirək, qabiliyyətli uşaq idi Seyid Əzim. O, babasının evində 10 ildən çox yaşadı. Yaqsay kəndində ruhanilik edən Molla Hüseyndən ərəb və fars dillərini, eləcə də bir neçə Dağıstan ləhcəsini öyrəndi.

18 yaşında - 1853-cü ildə anası ilə birlikdə Şamaxıya qayıtdı. Həmin il Şamaxı mədrəsəsinə getdi. Onda əmin idi ki, atası və babası kimi ruhani olacaq. 21 yaşında - 1856-cı ildə də Seyid Əzim İraqın Nəcəf və Bağdad şəhərlərinə bu həvəslə getdi. Amma İraqda təhsil aldığı illərdə onda dünyəvi elmlərə də böyük maraq oyandı. Bir neçə il sonra Suriyanın Şam (Dəməşq) şəhərinə yollandı. Təhsilini Şamda başa vurub axund adı qazandıqdan sonra vətəninə döndü. Bir müddət sonra yenə Şamaxını tərk etdi. Seyid Əzim bu dəfə ziyarətə yollandı. Məkkə və Mədinədən keçərək Misirə - Qahirəyə getdi.

O, ali ruhani təhsil almışdı. Ancaq müəllimlik edirdi. Həmin illərdə Bakı, Gəncə, Naxçıvan, Şuşa, Nuxa (Şəki) kimi Şamaxıda da yeni tipli məktəblər yaradılırdı. Seyid Əzim Şirvani də 1869-cu ildə Şamaxıda "Məclis" adlı məktəb açdı. Bu məktəbdə şagirdlərə yalnız dini elmlər deyil, ana dili və fars dili öyrədilir, tarix, coğrafiya, hesab və başqa fənlərdən ibtidai məlumat verilirdi. Seyid Əzimin məktəbində Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə və başqaları təhsil almışlar.

Tərcümə etdiyi əsərləri və öz şeirlərini toplayıb "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" adlı dərs kitabı tərtib etdi. Dərsliyin əlyazmasını Qori seminariyasının tatar şöbəsi müdiri Aleksandr Osipoviç Çernyayevskiyə göndərdi. Çernyayevski həmin dərslikdəki bir neçə hekayəni tərtib etdiyi "Vətən dili" dərsliyində verdi.

Seyid Əzim Şirvani 40 yaşında rus dilini öyrənməyə başladı. Şərq ədəbiyyatına dərindən bələd olan Seyid Əzim rus dili vasitəsilə Qərb mədəniyyəti ilə tanış oldu. O, tərcüməçiliklə məşğul oldu, məşhur şairlərin bir sıra əsərlərini ilk dəfə ana dilimizə çevirdi.

Böyük maraqla öyrəndiklərini şagirdlərinə də öyrədir, onlara Azərbaycanın, Şərqin və Qərbin dünyaşöhrətli şairləri, onların əsərləri barədə geniş məlumat verirdi.

1877-ci ildən pedaqoji fəaliyyətini təyin olunduğu Şamaxı şəhər məktəbində Azərbaycan dili və şəriət müəllimi kimi davam etdirdi. Onun şagirdlərə müasir ruhlu əsərlər oxuması nə çar hakim dairələrinin, nə də ruhanilərin xoşuna gəlirdi. Odur ki, əlbir olaraq 1879-cu ildə Seyid Əzimin müəllimlikdən kənarlaşdırılmasına nail oldular. Amma mübarizə əzmini qıra bilmədilər. O, Tiflisə gedib Qafqaz maarif idarəsi rəisinə işdən haqsız çıxarıldığını sübut etdi. Seyid Əzim Şirvani özünün və bəzi maarifpərvərlərin səyləri nəticəsində vəzifəsinə qayıtdı. Və ömrünün sonunadək müəllim işlədi.

### Başıbəlalı şair

*Şairəm, şeirdir mənim karım*
*Dürri-şeir ilə dolmuş anbarım.*

- yazırdı Seyid Əzim Şirvani. O, bədii yaradıcılığa təxminən 1850-ci illərdə başlamışdı. Qələmə aldığı qəzəl, qəsidə, mədhiyyə, minacat, rübai, qitə, müxəmməs, müsəddəs, müstəzad, tərcibənd və tərkibənd, həcv, təmsil, mənzum hekayə və başqa əsərlərlə dövrünün məşhur şairləri sırasında yer tutdu.

Seyid Əzimin Şamaxıda yaratdığı "Beytüs-səfa" ədəbi məclisinin Azərbaycan poeziyasının inkişafında əhəmiyyətli rolu oldu.

Araşdırıcıları şairin bədii irsinin Azərbaycan və farsca iki külliyyatdan ibarət olduğunu yazıblar. Məhəbbət mövzulu qəzəllər Füzuli ədəbi məktəbinin davamçısı olan Seyid Əzimin lirikasında başlıca yer tutur. Sayca çox olmasa da, Şərq mənbələrindən tərcümələri, Sədi, Hafiz və Füzuli şeirlərinə nəzirələri var. O, həm də maraqlı nəsr əsərlərinin müəllifidir. Yüzdən çox mənzum hekayəsində xalq nağıllarından, Molla Nəsrəddin lətifələrindən istifadə edib, Azərbaycan və fars klassiklərindən tərcümə və iqtibas yolu ilə qələmə alıb. Təmsil ustası kimi də Seyid Əzim Şirvaninin Azərbaycan ədəbiyyatında özünəməxsus yeri var. O, satirik şeirlərində, mənzum hekayələrində olduğu kimi, təmsillərində də tərbiyəvi-əxlaqi fikirlərini ifadə edib.

Azərbaycanın ilk mətbuat orqanı olan "Əkinçi" qəzetinin fəaliyyətə başlaması xalqının qabaqcıl övladlarından biri kimi Seyid Əzim Şirvanini də çox sevindirirdi. O, qəzetin yaradıcısı Həsən bəy Zərdabinin bu tarixi əməlini alqışlayır, dövrdaşlarını "Əkinçi"ni oxumağa, ona kömək etməyə səsləyirdi:

*Bəs "Əkinçi" cəlalımızdır bizim,*
*Nasehi xoşməqalımızdır bizim.*
*Səy edək, ey guruhi-niksifat,*
*Etməsin ta bizim "Əkinçi" vəfat.*

"Əkinçi" qəzeti Seyid Əzimin realist şeir yaradıcılığına keçməsində xüsusi rol oynadı. "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Müəllim haqqında tədbir", "Elmsiz alim", "Alim oğul ilə avam ata" "Qafqaz müsəlmanlarına xitab" və başqa satiraları onu dövrünün böyük realist şairi kimi tanıtdı.



Satirik şeirlərində cəhaləti, mövhumatı, nadanlığı tənqid atəşinə tutması Seyid Əzimə düşmənlər qazandırırdı. Haqqında dedi-qodular dolaşırdı. "Əkinçi" qəzetində dərc olunan satirik şeirləri düşmənlərinin sayını daha da artırmışdı. Ancaq şairin gözünü qorxutmaq, cəsarətini qırmaq mümkün deyildi. O, çəkinmədən xalqa səfil vəziyyətə düşməsinin səbəblərini və səbəbkarlarını göstərirdi.

Seyid Əzim Şirvani 53 yaşında - 1888-ci il mayın 20-də Şamaxıda vəfat etdi. Şairin qəfil ölümü ilə bağlı müxtəlif iddialar, ehtimallar irəli sürüldü. Ehmallardan biri onun sui-qəsd nəticəsində dünyasını dəyişməsidir. Şairin məscid qapısında yaradılan süni basabasda öldüyü də, möhvumatçı insanlar tərəfindən qətlə yetirildiyi də söylənilirdi.

Məktəb şagirdləri üçün hazırladığı, əlyazması şəklində materialları ondan sonra oğlu Mir Cəfər nizama saldı və 1895-ci ildə Təbrizdə daş basması ilə kitab çap etdirdi. Mollaxanalarda, məhəllə məktəblərində həmin kitabdan bir müddət dərslik kimi istifadə olundu.

Həyatı əzab-əziyyətlə keçsə də, yaradıcılığı qiymətləndirilməsə də, Seyid Əzim Şirvani əməlləri, əsərləri ilə ölümsüz olacağına özü də inanaraq yazmışdı:

*Mövti-cismani ilə sanma mənim ölməyimi,*
*Seyyida, ölmərəm, aləmdə səsim var mənim.*

Ondan sonra satira Azərbaycan ədəbiyyatında aparıcı istiqamətlərdən birinə çevrildi. XIX əsrdə Seyid Əzim Şirvaninin açdığı o iz itib-batmadı. Çünki onun açdığı cığıra yeni izlər düşdü.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Musiqi xadimləri

# Musiqi onun ruhuna genlə keçmiş, qanla hopmuşdu



**O, bənzərsiz musiqi yaradıcısı, əsl bəstəkar idi. Musiqi onun ruhuna genlə keçmiş, qanla hopmuşdu. Əslində bu belə də olmalı idi. Müdriklərin belə bir deyimi var: "İnsanı formalaşdıran onu əhatə edən mühitdir".**

O, gözünü açandan musiqi səsi eşitmiş, muğam dinləmişdi. Ağlı söz kəsəndən Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Seyid Şuşinski, Xan Şuşinski, Bəhram Mansurov kimi təkrarsız sənətkarların milli musiqimizin inciləri, xalq musiqisinin müxtəlif janrları haqqında söhbətlərini eşitmişdi. Söhbət Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı nümayəndəsi Vasif Adıgözəlovdan gedir.

1935-ci il iyulun 28-də Bakıda məşhur muğam ustası Zülfü Adıgözəlovun ailəsində anadan olan gələcək bəstəkar ilk musiqi təhsilini konservatoriyanın nəzdindəki 10 illik Musiqi Məktəbində pianoçu kimi alıb. 1953-cü ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın sinfində təhsil alan V.Adıgözəlov 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirib. O, hələ tələbə ikən uğurlu bir bəstəkar kimi özünü musiqi ictimaiyyətinə tanıtdıra bilmişdi. Bəstəkarın tələbəlik illərində yaratdığı simfonik orkestr üçün "Qəhrəmanlıq poema"sı ikinci respublika gənclər festivalında birinci dərəcəli diploma layiq görülüb. Həmin illər yaratdığı əsərləri P.Çaykovski adına Moskva Konservatoriyasında Azərbaycan İncəsənətinin nailiyyətlərinə həsr olunmuş konsertlərdə səslənib.

Əmək fəaliyyətinə 1958-ci ildən Radio və Televiziya Komitəsində musiqi redaktoru kimi başlayan sənətkar sonralar Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının baş musiqi redaktoru, A.Zeynallı adına Bakı Musiqi Məktəbinin direktoru və digər vəzifələrdə çalışmışdır. Vasif Adıgözəlov 1972-ci ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında əsas işçi kimi müəllimlik də edib. 1989-cu ildən professor olan maestro Musiqi Akademiyasında xor dirijorluğu kafedrasına rəhbərlik edib. Musiqi içitimaiyyəti arasında böyük nüfuz qazanıb, 1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi seçilib.

Onun geniş və rəngarəng musiqi janrlarında yazdığı yüksəksəviyyəli sənət əsərləri nəinki Azərbaycanda, eləcə də dünyanın bir çox yerlərində, o cümlədən Almaniya, Bolqarıstan, Çexiya, Meksika, Kosta-Riko, Venesuela, Kuba, Türkiyə, İran və keçmiş SSRİ respublikalarının musiqi ictimaiyyətinə yaxşı tanışdır. Bəstəkar 2 operanın - "Ölülər" və "Natəvan", 6 musiqili komediyanın, eləcə də "Nənəmin şahlıq quşu", bəstəkar Ramiz Mustafayevlə birgə yazdığı "Hacı Qara", "Boşanaq - evlənərik", "Aldın payını, çağır dayını", həmçinin "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915", "Qəm karvanı" oratoriyalarının, 3 simfoniyanın, "Segah" muğam-simfoniyasının, "Mərhələlər", "Afrika mübarizə edir" simfonik poemalarının, 5 instrumental konsertin, çoxlu sayda kamera-instrumental əsərlərin, 100-ə qədər mahnı və romansın, dram tamaşalarına və kinofilmlərə yazılmış musiqinin müəllifidir.

Vasif Adıgözəlovun yaradıcılığında monumental vokal-simfonik əsərlər üstünlük təşkil edir. Onun müxtəlif illərdə bəstələdiyi "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915" oratoriyaları xalqın tarixini, azadlıq və müstəqillik uğrunda mübarizəsini və qələbəsini tərənnüm edən yüksək vətənpərvərlik ruhunda yazılmış sənət əsərləridir.

Vasif Adıgözəlov təpədən-dırnağacan milli bəstəkar idi. Keçən əsrin 90-cı illərində Ermənistanın Qarabağda separatçılıq hərəkatına başladığı zaman bu böyük sənət adamı yaratdığı musiqi ilə vətən sevgisinin nümunəsini sərgilədi. O çətin illərdə Azərbaycan xalqı Vasif Adıgözəlovu həm də vətənini canından çox sevən bir ziyalı kimi tanıdı. Onun silahı musiqisi, yaratdığı əsərlər Vətəni üçün döyünən ürəyi idi. Bəstəkarın "Odlar yurdu" və T.Elçinin sözlərinə yazılmış "Qarabağ şikəstəsi" oratoriyaları həyatımızın mürəkkəb mənəvi proseslərini, o günlərin acı həqiqətlərini əks etdirən musiqi nümunəsi olmaqla yanaşı, mübarizəyə və birliyə çağırış idi. Qələbəyə inamı və qətiyyəti ifadə edən oratoriyanın finalı xalqa xitab edilmiş bir himn kimi səslənir. Qeyd edək ki, "Qarabağ şikəstəsi" oratoriyası yüksək professional və bədii səviyyədə yazılmış möhtəşəm, monumental əsərdir.

O, iri monumental əsərlərlə yanaşı, dillər əzbəri olan mahnıları ilə də insanların qəlbinə yol aça bilib. Vasif Adıgözəlovun bəstələdiyi "Qərənfil", "Bakı", "Xoşum gəlir", "Naz-naz", "Şuşa laylası", "Ana" kimi mahnıları bu gün də sevilən sənət əsərləridir.

Bəstəkarın müxtəlif janrları əhatə edən yaradıcılığının çox hissəsini fortepiano üçün musiqi təşkil edir. Yaradıcılığının ilk illərindən fortepiano üçün prelüdlərdən tutmuş ən irihəcmli instrumental əsər - piano və orkestr üçün üç "Konsert"in, skripka və orkestr üçün, violonçel və orkestr üçün konsertin müəllifidir.

Vasif Adıgözəlovun yaratdığı ölməz sənət inciləri Azərbaycan musiqisinin ən dəyərli nümunələrindən biri kimi əsrlər boyu yaşayacaq, müəllifini unudulmağa qoymayacaq. Bax əsl sənətkarın da gücü və istedadı ondadır ki, onun yaratdıqları daim yaşayır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Müasir Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndəsi

**Həyatını quruculuq işlərinə sərf edərək Azərbaycanda şəhərsalma, tikinti və memarlıq sahəsinin inkişafına layiqli töhfələr verən Rasim Əliyev 1934-cü il iyulun 16-da Gəncə şəhərində anadan olmuşdur.**



R.Əliyev 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunu memarlıq ixtisası üzrə bitirib. Ali təhsilini başa vurduqdan sonra, 1958-1965-ci illərdə "Azərdövlətlayihə" İnstitutunda işləyib. O, 1965-1974-cü illərdə Bakı şəhərinin baş memarının birinci müavini və 1974-1988-ci illərdə baş memarı vəzifələrində çalışıb, eyni zamanda, 1980-1988-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi olub.

Rasim Əliyev Bakının, eləcə də respublikanın digər şəhərlərinin planlaşdırılması və tikintisinə dair çox sayda layihənin müəllifi olub. İçərişəhərin regenerasiya planı da bilavasitə onun başçılığı ilə hazırlanıb. Ölkə miqyasında bir sıra obyektlərin layihələndirilməsi işinə rəhbərlik edən Rasim Əliyev özünün yüksək peşəkarlığı, təşəbbüskarlığı və əməksevərliyi sayəsində həmin layihələrin uğurla həyata keçirilməsində təqdirəlayiq fəaliyyət göstərib. Heydər Əliyev adına Bakı Beynəlxalq və Naxçıvan hava limanlarının, Bakı Metropoliteninin bir neçə stansiyasının, Bakı şəhərinin simasını müəyyənləşdirən bir çox binaların, yaşayış massivlərinin və əsas parkların, habelə paytaxtda və digər şəhərlərimizdəki mərkəzi meydanların və mədəniyyət saraylarının, həmçinin xatirə abidələrinin işlənib hazırlanmasında onun əvəzsiz xidmətləri vardır. Sənətkarın layihələndirdiyi bütün bu memarlıq nümunələri özünün maraqlı həcm-məkan kompozisiyası və monumentallığı ilə səciyyələnir. Rasim Əliyev zəngin irsi ilə memarların gənc nəslinin bədii-estetik zövqünün formalaşmasında və peşəkarlığının təşəkkülündə mühüm rol oynayıb.

Rasim Əliyevin ölkəmizdə memarlığın inkişafında xidmətləri və şəhərsalma sahəsindəki uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, 1979-cu ildə Əməkdar memar fəxri adını alıb, 1982-ci ildə Dövlət mükafatına layiq görülüb, 2000-ci ildə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət", 2009-cu ildə "Şərəf" və 2014-cü ildə "İstiqlal" ordenləri ilə təltif edilib.

Tanınmış memar 2021-ci ildə vəfat edib.

# "Teatral Akademiya" layihəsi regional teatrların inkişafına töhfə verir

**Mədəniyyət Nazirliyi tərəfindən "Teatral Akademiya" adlı yeni layihəyə start verilib.**

Nazirlikdən bildirilib ki, layihə ölkədə fəaliyyət göstərən dövlət teatrları arasında təcrübə mübadiləsini təşviq etmək, yaradıcı kadr potensialını inkişaf etdirmək və gənc teatr mütəxəssislərinin formalaşmasına dəstək olmaq məqsədi daşıyır.

Layihə çərçivəsində regionlarda yerləşən teatr truppaları üçün müasir teatr texnikaları, səhnə hərəkəti, yeni metod və trendlərlə bağlı yay məktəbləri, ustad dərsləri, seminar və müzakirələr təşkil olunur. Təlimlərə təcrübəli pedaqoqlar və tanınmış teatr mütəxəssisləri cəlb edilir.

"Teatral Akademiya"nın ilk mərhələsi Lənkəran Dövlət Dram Teatrında yay məktəbi ilə başlayıb. Təlimlərdə Əməkdar artistlər - Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının səhnə ustası Nofəl Vəliyev və Azərbaycan Dövlət Pantomim Teatrının aktyoru Bəhruz Əhmədli iştirak ediblər.

Hazırda layihənin növbəti mərhələsi Şəki Dövlət Dram Teatrında davam edir. Burada təlimləri Prezident mükafatçısı, rejissor Ceyhun Dadaşov aparır. Layihənin yaxın mərhələsində isə Gəncə Dövlət Milli Dram Teatrında ustad dərslərinin keçirilməsi planlaşdırılır.

"Teatral Akademiya" layihəsi region teatrlarının potensialını gücləndirmək, yaradıcı mühitin inkişafına töhfə vermək və mədəniyyət sahəsində islahatlara dəstək məqsədi daşıyır.



# Dövlət Akademik Filarmoniyası mövsümü simfonik orkestrin yubiley konserti ilə başa vurub

**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası 2024-2025-ci il konsert mövsümünə yekun vurub.**



Filarmoniyanın Yay zalının səhnəsində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin 105 illik yubileyinə həsr olunmuş konsert keçirilib.

Bədii rəhbər və baş dirijor, Əməkdar artist Fuad İbrahimovun idarə etdiyi orkestr ilk olaraq Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra"nı ifa edib. Xalq artisti Murad Adıgözəlzadə (piano) A.Məlikovun piano və orkestr üçün konsertindən fraqmentlər ifa edib. Onun böyük enerji dolu virtuoz ifası alqışlarla qarşılanıb. F.Əmirovun "Simfonik rəqslər"dən "Şənlik" rəqsinin səslənməsi yubiley gecəsini daha da rəngarəng edib.

Proqramda daha sonra orkestrin ifasında Q.Qarayevin "Alban rapsodiyası" və M.Maqomayevin "Təntənəli marş" əsərləri səslənib. Bu nömrələrin ifası zamanı dirijor pultu arxasında Mustafa Mehmandarov dayanıb. Proqramın son nömrəsi Niyazinin "Rast" simfonik muğamı (dirijor Fuad İbrahimov) olub. Dinləyicilərin gur alqışları altında orkestr bis olaraq Niyazinin "Vals"ını ifa edib.

Konsertdən sonra çıxış edən orkestrin bədii rəhbəri və baş dirijoru Fuad İbrahimov, hər bir ifaçının peşəkar musiqiçi olduğunu vurğulayaraq, yubiley münasibətilə kollektivi ürəkdən təbrik edib.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli Dövlət Simfonik Orkestrinin fəaliyyətində xalqımızın milli musiqi irsi ilə dünya musiqisinin vəhdətinin, yüksək peşəkarlıq və sənətə sədaqətin əks olunduğunu qeyd edib. Bildirib ki, orkestrin səhnədə yaratdığı musiqi mənzərəsi həm dinləyicilərin qəlbinə yol tapır, həm də Azərbaycan musiqisinin şöhrətinin dünyaya yayılmasına xidmət edir. Bu yubiley təkcə orkestrin deyil, bütövlükdə Üzeyir bəy Hacıbəyli tərəfindən əsası qoyulan Azərbaycan klassik musiqisinin zəngin və parlaq yolunun təntənəsidir.

# "AzərEnerji" Naxçıvan enerji sistemində yenidənqurmaya başlayıb





**Naxçıvan Muxtar Respublikasında ötən əsrin 50-ci illərinin sonlarından istismarda olan hava-elektrik verilişi xətlərinin "AzərEnerji" ASC tərəfindən sökülərək yenidən qurulmasına başlanılıb.**

İlkin mərhələdə 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" hava-elektrik verilişi xətləri ikidövrəli olmaqla, ümumilikdə 68 km məsafədə yenidən çəkilir.

"AzərEnerji" ASC-dən verilən məlumata görə, Naxçıvan ötürücü şəbəkəsində istismar müddətini çoxdan keçən xətlərdə həyata keçirilən işlər nəticəsində enerjinin ötürülmə qabiliyyətini yüksəltməklə yanaşı, enerji təchizatında baş verə biləcək nasazlıqların, qəzaların qarşısı alınacaq, dayanıqlılığı və etibarlılığı artırılacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2024-cü il tarixli "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 235 nömrəli Fərmanının icrası olaraq, "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası enerji sisteminin elektrik enerjisi generasiya və ötürücü infrastrukturlarının idarəedilməsi üçün cəmiyyətin tərkibində "Naxçıvan Enerji" MMC təsis edilib, həmçinin "Naxçıvan Muxtar Respublikasının Elektroenergetika Strategiyası" hazırlanıb.

Strategiyada "2025-2027-ci illər üzrə Reabilitasiya və Yenidənqurma Tədbirləri" və "Strateji Baxış İstiqamətləri" müəyyən olunub.

Bu işlər çərçivəsində 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" ötürmə xətlərinin yenidən çəkilməsi ilə yanaşı 154/110/10 kV-luq "Babək", 110/35/10 kV-luq "Çeşməbasar" və 110/35/10 kV-luq "Naxçıvan" yarımstansiyaları müasir tələblərə uyğun olaraq tam şəkildə yenidən qurulacaq. Həmçinin, Naxçıvan Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzi, eləcə də yardımçı texniki infrastrukturlar da yaradılacaq.

***Bəhmən MİRZƏYEV,***
***"Azərbaycan"***

# Kəngərli daha 176 sakinini qoynuna aldı

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, idarə və müəssisələrin inzibati binalarında müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb.





Bu mərhələdə Kəngərli kəndinə 43 ailə - 176 nəfər köçürülüb. Bakının Qaradağ rayonundan doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, ürəklərindən süzülüb gələn xoş sözlərlə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər. Böyük sevinc və fərəh içində doğma ocaqlarına qayıdan keçmiş köçkünlər İkinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusunun sıralarında qəhrəmancasına vuruşan zabit və əsgərlərimizə dərin minnətdarlıqlarını ifadə ediblər. Vətənin azadlığı naminə canlarından keçən şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyiblər.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti işlərini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 43 mindən çox insan yaşayır. Zaman keçdikcə doğma ocaqlarına dönəcək keçmiş köçkünlərin sayı daha da artacaq. Günlər keçdikcə bölgələrə əvvəlki həyat qayıdacaq, torpağın da, insanların da üzü güləcək.

Kəngərli kəndinə, ata-baba yurduna qayıdan keçmiş məcburi köçkünlərin üz-gözündən sevinc süzülür. Bu da təbiidir, çünki başqa məcburi köçkünlər kimi kəngərlilər də uzun illər idi ki, doğma ocaqlarının həsrətilə yaşayırdılar. Artıq nisgilə son qoyulmuşdur. İkinci Qarabağ müharibəsində qazanılmış Zəfər Qarabağa və başqa bölgələrə gedən yolları geniş açmışdı.

Kənd sakini Vüsalə Abbasova doğma ocaqlarına qayıtmağının sevincini xoş sözlərlə ifadə edərək deyir ki, bu gün ata-baba yurduna qürur hissi ilə qayıdır: "Başda Prezident İlham Əliyev olmaqla Azərbaycan Ordusuna, onun qəhrəman zabit və əsgərlərinə minnətdarlığımı bildirirəm. Çox sevinirəm ki, torpaqlarımız bu gün azaddır, ona düşmən ayağı dəymir. Doğma kəndimizə, el-obamıza qayıtdığımıza görə çox sevinirik, gözəl hisslər keçiririk. İnanırıq ki, bundan sonra rahat, sülh və əmin-amanlıq şəraitində yaşayacağıq".

Ağdam şəhərinin mərkəzindən 6 kilometr uzaqda yerləşən Kəngərli kəndinin təməlini Prezident İlham Əliyev 2022-ci il oktyabrın 4-də qoymuşdur. Bu yaşayış məntəqəsi 2544 nəfər üçün planlaşdırılıb.

Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə burada iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Böyük əminliklə demək olar ki, uzun illərin ayrılığından sonra böyük sevinc içində doğma ocaqlarına qayıdan keçmiş köçkünlər ata-baba yurdlarında rahat və əmin-amanlıq içində yaşayacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Ağdamın Kəngərli kəndində daha 43 ailəyə evlərinin açarları təqdim edilib







İyulun 17-də doğma yurduna yola salınan köç karvanı Ağdam rayonunun Kəngərli kəndinə çatıb. Bu mərhələdə köçürülən 176 nəfərdən ibarət 43 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib. Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır.


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir
Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasına səfərə gəlib
Azərbaycan-Türkmənistan: körpüsü Xəzər olan dost ölkələr
"Azərbaycana qarşı təkəbbürlü davranış keçmir və keçməyəcək"
Zəngəzur dəhlizi məsələsində ortaq məxrəcə gəlmək mümkün olacaqmı?
Azərbaycan və Ermənistan arasında danışıqlar, böyük güclər arasında isə mübarizə gedir
Qareginin qara günü yaxınlaşır

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ukrayna Ali Radası hökumətin yeni üzvlərini təyin etdi

Dünən Ali Rada Ukraynanın Baş nazirini və yeni hökumət üzvlərini təyin edib. 262 xalq deputatının səsi ilə 39 yaşlı Yuliya Sviridenko hökumətin başçısı olub.



O, məmur ailəsində anadan olub. Kiyev Milli Ticarət və İqtisadiyyat Universitetini fərqlənmə diplomu ilə bitirib və aspiranturada təhsil alıb. Almaniya və İsveçdə menecment kursları keçib. İngilis və Çin dillərini mükəmməl bilir. Karyerasına özəl sektorda başlayan gələcək Baş nazir sonra Çerniqov vilayətində investisiya layihələrinə rəhbərlik edib, Regional Dövlət Administrasiyasında işləyib və burada sədr səlahiyyətlərini icra edən vəzifəyə qədər yüksəlib. Yuliya Sviridenko İqtisadiyyat nazirinin müavini, 2020-ci ildən isə Prezident Aparatı rəhbərinin iqtisadiyyat üzrə müavini olub. Nazirlər Kabinetində mühüm layihələrə cavabdeh olan Y.Sviridenko ABŞ ilə yeraltı sərvətlərə dair yüksəkprofilli sazişə Ukrayna tərəfindən imza atıb.

Parlament hökumətin digər üzvlərini də təyin edib. Onların sırasında yerini dəyişənlər, qoruyanlar, eləcə də yeni üzvlər var. Ukrayna Prezidenti Volodimir Zelenski artıq ölkənin yeni hökuməti qarşısında ilk mühüm vəzifəni qoyub: Ukrayna Silahlı Qüvvələrində Ukrayna silahlarının faizini 6 ay ərzində 50 faizə çatdırmaq. "Biz yeni hökumətin işinin ilk 6 ayında öz istehsalımızı artıraraq bu hədəfə çatmalıyıq. Əminəm ki, bunu həyata keçirmək olar", - deyə dövlət başçısı bildirib. Eyni zamanda Ukrayna lideri ordunun təminatının cari göstəricilərini açıqlayıb. Onun sözlərinə görə, hazırda olkənin Silahlı Qüvvələrinin silahlarının 40 faizi Ukrayna istehsalıdır. Zelenski qeyd edib ki, bu payın artırılması aktiv hücum hərəkətləri strategiyasını həyata keçirmək üçün lazımdır.

Dövlət başçısı struktur dəyişikliklərini də açıqlayıb. İndi hərbi sənaye kompleksi məsələlərinin əlaqələndirilməsinə Müdafiə Nazirliyi cavabdeh olacaq. Qeyd edək ki, əvvəllər bu funksiyalar Strateji Sənaye Nazirliyi tərəfindən həyata keçirilirdi.

Yenilənmiş hökumətin atmalı olduğu digər prioritet addımlar bunlardır: Ukraynanın iqtisadi potensialının gücləndirilməsi və ukraynalılar üçün dəstək proqramlarının genişləndirilməsi.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# İrəvan çıxış yolunu sülh müqaviləsində görür

## Ermənistanda da Azərbaycanın tələblərinin haqlı olduğunu anlamağa başlayıblar

Beş ilə yaxındır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar gedir. Azərbaycan qalib ölkə kimi prosesə sadiqliyini dəfələrlə təsdiqləsə də, Hayastan məğlub ölkə olmasına baxmayaraq, dondan-dona girərək sülh sazişini imzlamaqdan yayınır.

Hətta müqavilənin imzalanmamasında Azərbaycanı günahkar çıxarmağa da cəhd edir. Bununla da rəsmi İrəvan beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışır. Anlamır ki, əgər Azərbaycan sülh tərəfdarı olmasaydı, onun şərtlərini hazırlayıb Ermənistana təqdim etməzdi, savaş istəsəydi, işğaldan azad etdiyi əraziləri yenidən qurub yurdundan-yuvasından didərgin düşən vətəndaşlarını ora göndərməzdi.

Amma deyəsən, vəziyyət düzəlir. Hər iki ölkə liderlərinin Əbu-Dabidəki görüşü ilə bağlı Ermənistanda qeyd edilir ki, tərəflər bəzi məsələlərin həllində razılığa gəliblər. Xüsusi olaraq vurğulanır ki, Ermənistan rəhbərliyi çıxış yolunu Azərbaycanla münasibətlərin normallaşmasında görür. Hətta Ermənistanın "Hraparak" nəşri iddia edib ki, Azərbaycanla müqavilə dekabrda imzalanacaq. Bildirilib ki, Ermənistan Zəngəzur dəhlizinə nəzarətin beynəlxalq təşkilatlara verilməsinin əleyhinə deyil. Nəşrin yazdığına görə, müqavilə dekabrda imzalanacağı üçün Ermənistan hüquq-mühafizə orqanlarının əməkdaşları hərəkətə keçərək "Daşnaksütyun" üzvlərini həbs edirlər və etiraz edə biləcək qüvvələri sıradan çıxarırlar.

Ekspertlər də qeyd edirlər ki, əslində sülh sazişinin həmin vaxt imzalanması mümkün variantdır. Amma bu görüşdə sazişin imzalanma tarixi barədə hər hansı məlumat verilməyib. Azərbaycan və Ermənistan liderlərinin görüşündə sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması, sülh müqaviləsinin paraflanması müzakirə olunub, indiki şərait dayanıqlı və dönməz sülhün əldə olunması üçün tarixi fürsət kimi dəyərləndirilib.

Ermənistanın "4rd.am" nəşri isə yazıb ki, Əbu-Dabidə İlham Əliyev və Nikol Paşinyan arasında danışıqların təxminən 5 saat davam etməsinə baxmayaraq, onun məzmunu ilə bağlı yayılan məlumatlar və "sızmalar" olduqca qısa və natamamdır: "Hər halda, görüşdən az sonra bir çox şərhçilər Ermənistanın xarici işlər nazirinin müavininin sonradan "təkzib və izahata ehtiyac duyan" açıqlamalarına əsaslanaraq qeyd ediblər ki, Zəngəzur dəhlizinin verilməsi məsələsi müzakirə olunub. Bu barədə çoxsaylı müzakirələr, şərhlər və fikirlər səslənib".

Siyasi ekspert Levon Minasyan deyib ki, Nikol Paşinyan və komandası artıq beş ildir israrla bildirirlər ki, Zəngəzur dəhlizi olmayacaq, bunu daim inkar edirlər. Qeyd edib ki, lakin ötən gün keçirilən mətbuat konfransının əsas məqsədi dəhliz anlayışı ilə bağlı manipulyativ fikirlər yaymaq idi: "Bu səbəbdən deyilib ki, dəhliz termini beynəlxalq xarakter daşıyır, əgər dəhliz verdiyimizi oxusanız və ya eşitsəniz, inanmayın, bu, sadəcə bir yoldur, çünki 2020-ci il noyabrın 10-dan sonra "dəhliz" sözü bizim üçün mənfi, allergik kontekstdə səslənir".

Medianın məlumatına görə, Paşinyan deyib: "Çox vaxt beynəlxalq tərəfdaşlarımız dəhliz deyəndə, biz bir az diksinirik. Onlar da təəccüblənirlər ki, biz nə dedik ki? Halbuki bütün dünya hər yerdə dəhliz axtarır və s. İndi hər dəfə dəhliz deyəndə, problem yaranır, bəs onlar hansı dəhlizi nəzərdə tuturlar, bu dəhlizi, yoxsa o birini? Məsələn, Ermənistanın Şimal-Cənub yolu necə adlanır, bilirsinizmi? Ermənistanın rəsmi sənədlərində bu yol "Şimal-Cənub nəqliyyat dəhlizi" adlandırılır".

Paşinyan ABŞ və Avropa İttifaqından yolun idarə edilməsi ilə bağlı təkliflər aldığını da təkzib etməyib və bildirib ki, dəhliz məsələsində razılıq verib, lakin kimə tapşırılacağı hələ müəyyən edilməyib. O, "Zvartnots" hava limanı, Cənubi Qafqaz Dəmir Yolu, su təsərrüfatı və "HayPost" şirkətini misal göstərərək qeyd edib ki, bunlar idarəetməyə verilib, amma Ermənistanın mülkiyyəti olaraq qalırlar.

Türkiyədəki ABŞ səfirinin yolun icarəyə verilməsi ilə bağlı dediklərinə cavab olaraq N.Paşinyan bildirib: "Bizim qanunvericilikdə bu, "inşa hüququ" adlanır və həmin hüquqla qoyulan investisiyalar müəyyən şərtlərlə müqavilə müddəti bitdikdən sonra ya Ermənistanın mülkiyyətində qalır, ya da Ermənistan mülkiyyətinə keçir".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Abşeron Xızı regional şöbəsinə verilmiş ciddi hesabat blankları olan inzibati tənbeh vermə haqqında qərarlar (Qərar-MN 1291429; Qərar-MN1291434; Qərar-MN 1612427) itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Aytən Qarayevaya atası

**HİDAYƏT QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3655
Sifariş 1458

Qiyməti 60 qəpik